HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV


# Vergilər

№ 29 (871) ▪ 2 avqust 2017 | www.vergiler.az | Qiymәti: 60 qәp.


# Azərbaycan dili milli sərvətimizdir

## *1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür*

Ana dili qeyri-maddi irsin qorunması, inkişafı istiqamətində ən güclü vasitələrdən biridir. Ən başlıcası, dil fərdə, cəmiyyətə, sosial inteqrasiyaya, təhsil və inkişafa təsir gücünə görə bəşəriyyət üçün həyati əhəmiyyət kəsb edir.

Ölkəmizin zaman-zaman müxtəlif imperiyalar tərkibində yaşamasına baxmayaraq, ana dilimiz milli məfkurənin, milli şüurun və milli-mədəni dəyərlərin yaşamasını və inkişafını təmin etmişdir. Hələ XVIII əsrdə Qafqaza səfər etmiş məşhur fransız yazıçısı və səyyahı Aleksandr Düma yol qeydlərində yazırdı: "Avropada fransız dili necə əhəmiyyətə malikdirsə, Qafqazda da Azərbaycan dili o cür əhəmiyyətə malikdir". Ulularımızın bizə müqəddəs qoyub getdikləri ana dilimiz ağız ədəbiyyatından, bayatılardan, dastanlardan süzülərək İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Vəli Xuluflu, Bəkir Çobanzadə, Səməd Vurğun, Üzeyir bəy Hacıbəyli, Mirzə İbrahimov və digər bu kimi dühaların zəngin irsi və dəstəyi ilə qorunub saxlanılıb. Əcdadlarımızdan bizə miras qalmış, dahilərin diqqətini çəkmiş, əsrlərin sınağından şərəflə çıxmış ana dilimizin bu gün dövlət dili kimi işlənməsindən böyük qürur hissi keçiririk. Bu dilin qorunması və qayğı ilə əhatə olunması müstəqil Azərbaycanın hər bir vətəndaşının müqəddəs borcudur.



Sovetlər dönəmində yaranmış müəyyən maneələrə baxmayaraq, sarsılmaz milli təməlləri olan Azərbaycan dili mövcudluğunu qoruya bilib. Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu hər iki dövrdə Azərbaycan dilinə həmişə böyük diqqət və qayğı göstərib. Birmənalı şəkildə deməliyik ki, respublikamızda dil siyasətinin formalaşdırılması, ana dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi, dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli həmrəyliyin göstəricisi olması, beynəlxalq aləmdə rolunun və nüfuzunun yüksəlməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan hələ 1977-ci ildə sovetlər birliyinin tərkibində olarkən SSRİ-nin yeni Konstitusiyası təsbit edilən zaman oraya dövlət dili haqqında maddənin salınmaması ilə heç cür razılaşmayan böyük rəhbər bu məsələdə öz prinsipial mövqeyini göstərib. 1978-ci il aprelin 2-də doqquzuncu çağırış Ali Sovetin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyası layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş yeddinci sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyevin təkidi ilə 73-cü maddəni yeni dəyişikliklə vermək qərara alınır. Bu dəyişiklik Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dilinin Azərbaycan dili olduğunu əks etdirir. Yaşlı nəsil yaxşı bilir ki, bu, o dövr üçün həlli çox çətin olan məsələ idi. Amma bütün çətinliklərə baxmayaraq, ümummilli liderin uzaqgörən siyasəti və bu tarixi qərara nail olması mənəvi varlığımızın əsası sayılan ana dilimizin inkişafında böyük dönüş oldu.

Müstəqilliyimizin bərpasından sonra Azərbaycan dilinin qloballaşma dövrünün mənfi təsirlərindən qorunması və inkişaf etdirilməsi istiqamətində ulu öndərin səyi xalqımız üçün əvəzedilməz töhfədir. «Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir» - deyən ümummilli liderin 2001-ci il iyulun 18-də imzaladığı «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» və həmin il avqustun 9-da imzaladığı «Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında» fərmanlar ana dilimizin qorunması və inkişafı baxımından göstərdiyi misilsiz xidmətlərdəndir. Hər il avqustun 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü təntənə ilə qeyd edilir. 2003-cü il yanvarın 2-də isə ulu öndər Heydər Əliyevin fərmanı ilə «Azərbaycan Respublikasında Dövlət dili haqqında» Azərbaycan Respublikasının Qanunu qüvvəyə minib. Qanunda dövlətin ana dilinə qayğısı istiqamətində əsas vəzifələr dəqiq göstərilib.

Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyevin dövlətçilik ənənələrini və siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin dövlət başçısı kimi imzaladığı ilk sənədlərdən biri də Azərbaycan və dünya klassiklərinin ən məşhur əsərlərinin latın qrafikalı əlifba ilə kütləvi nəşrinin həyata keçirilməsi haqqındakı sərəncamı olmuşdur. Ölkə rəhbərinin «Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında» 2004-cü il 14 yanvar, «Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında» 2007-ci il 30 dekabr tarixli sərəncamları ana dilimizin həyatımızın bütün sahələrində tam və müfəssəl tətbiqini gerçəkləşdirmişdir. Bu sırada dövlət başçısının «Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında» 2012-ci il 23 may və «Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında» 2012-ci il 29 may tarixli sərəncamları dilimizə, mədəniyyətimizə, zəngin mənəvi dəyərlərimizə böyük hörmət və ehtiramın bariz nümunəsidir.

**Ana dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi, dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli həmrəyliyin göstəricisi olması, beynəlxalq aləmdə rolunun və nüfuzunun yüksəlməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır**

Dövlət proqramı 2013-2020-ci illər ərzində bu istiqamətdə bir sıra zəruri tədbirlərin həyata keçirilməsində böyük rol oynayır. Proqram çərçivəsində Azərbaycan dilinin istifadəsi və tətbiqinə dövlət qayğısı artırılmış, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi zənginləşdirilmiş, ölkədə dilçilik araşdırmaları əsaslı surətdə yaxşılaşdırılmışdır.

Prezident İlham Əliyev daim dilimizin cəmiyyətdə rolunun daha da möhkəmlənməsi istiqamətində uğurlu siyasət aparmaqla yanaşı, ana dilimizin qorunmasının vacibliyini də daim diqqətdə saxlayır. 2015-ci il oktyabr ayının 9-da və AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda çıxış edərkən Prezident İlham Əliyev bəzi hallarda Azərbaycan dilinə xaricdən müdaxilələr edildiyini və bu müdaxilələrin Azərbaycanda da dəstək qazandığını görəndə çox narahat olduğunu bildirib: «Azərbaycan dili bizi bir xalq, millət kimi qoruyub. Əsrlər boyu biz başqa ölkələrin, imperiyaların tərkibində yaşadığımız, müstəqil olmadığımız dövrdə milli dəyərlərimizi, ana dilimizi qoruya, saxlaya bilmişik».

**Azərbaycan dili bizi bir xalq, millət kimi qoruyub. Əsrlər boyu biz başqa ölkələrin, imperiyaların tərkibində yaşadığımız, müstəqil olmadığımız dövrdə milli dəyərlərimizi, ana dilimizi qoruya, saxlaya bilmişik**

Ədəbiyyat və incəsənət xadimləri, ədəbiyyatşünas və dilçilərlə görüşlərində, bölgələrə səfərləri zamanı ictimaiyyətin nümayəndələri və ziyalılarla söhbətlərində dövlət başçısı dəfələrlə Azərbaycan dilinin zənginliyini önə çəkərək onun heç bir xarici kəlməyə ehtiyacı olmadığını deyib: «Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. Bir daha demək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq. Bu gün də qorumalıyıq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik. Əlbəttə, bizim vətəndaşlar, xüsusilə gənc nəsil nə qədər çox xarici dil bilsələr, o qədər yaxşıdır. Ancaq ilk növbədə, öz ana dilini bilməlidirlər. Digər tərəfdən, imkan verməməlidirlər ki, ana dilimizə yad kəlmələr daxil olsun».

Ölkə Prezidenti çıxışında son dövrlər müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsini də diqqətə çatdıraraq bildirib ki, imkan verilməməlidir ki, ana dilimizə yad kəlmələr daxil olsun: «Buna ehtiyac yoxdur. Ancaq biz bunu görürük. Bəzi ictimai xadimlərin, hökumət üzvlərinin çıxışlarında, bəzi televiziya verilişlərində, Milli Məclisdə eşidirəm ki, kənar kəlmələrdən istifadə edilir. Buna ehtiyac yoxdur. Əlbəttə, mən bu sahədə mütəxəssis deyiləm, ancaq bir vətəndaş kimi hesab edirəm ki, yeni kəlmələrin icad edilməsinə heç bir ehtiyac yoxdur. Lüğətimiz o qədər zəngindir ki, bunu qorusaq və gələcək nəsillərə əmanət kimi təhvil versək, bu, bizim bu sahədəki ən böyük nailiyyətimiz olacaqdır».

Dilimizin saflığının qorunması, eyni zamanda, özünəməxsus cəhətlərinə xələl yetirilmədən zənginləşdirilməsi hazırda aktual məsələlərdəndir. Xüsusilə yeni və təkmilləşdirilmiş, fərqli formatlarda lüğətlərin hazırlanması, dünyanın tanınmış yazıçılarının əsərlərinin, önəmli nəşrlərin Azərbaycan dilinə tərcümə edilməsi, televiziya və radiolarda verilişlərin yayımı, filmlərin nümayişi zamanı ana dilimizin bütün xüsusiyyətlərinə riayət olunması müvafiq istiqamətdə həyata keçirilən önəmli tədbirlərdir. Ana dilimizin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tədbirlərində eşidilməsi hamımız üçün qürurvericidir.

Azərbaycan dili milli sərvətimizdir. Bu dilin qorunub inkişaf etdirilməsində dövlətlə yanaşı, xalq da yaxından iştirak etməlidir. Ulu babalardan bizlərə miras qalan bu milli sərvəti hər bir azərbaycanlı göz bəbəyi kimi qorumalı, onun qayğısını çəkməlidir.

*«Azərbaycan» qəzeti*

# Qarşılıqlı əlaqələr məmnunluq doğurur

İyulun 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-ın Arizona ştatının Nümayəndələr Palatasının sədri Cavan Mesnardı qəbul edib.



Artıq bir neçə gündür Azərbaycana gəldiyini, Bakı və regionlarımız ilə tanış olduğunu qeyd edən C.Mesnard bu səfərdən məmnunluğunu gizlətməyib: «Sizin ecazkar ölkənizdə olmağımdan çox xoşbəxtəm. Azərbaycan çox gözəl ölkədir. Mən ilk dəfədir ki, buradayam. İnsanlar hər yerdə dostluq və qonaqpərvərlik nümayiş etdirirlər. Mən ABŞ-a geri döndükdə bu təəssüratlarımı hamı ilə bölüşəcəyəm». Nümayəndələr Palatasının sədri Arizona ştatının qanunvericilərinin əksəriyyətinin Azərbaycan haqqında çox eşitdiyini bildirib.

Prezident İlham Əliyev qonağın Bakıda və regionlarda olmasının ölkəmiz haqqında daha geniş informasiya əldə edilməsi işinə kömək edəcəyini vurğulayıb. Dövlətimizin başçısı qeyd edib ki, ABŞ-dan Azərbaycana daha çox səfərlərin həyata keçirilməsi insanlar arasında təmasların genişləndirilməsi və xalqlarımızın bir-birini daha yaxından tanıması baxımından önəmlidir və bu, həm də ölkələrimiz arasında əməkdaşlığın möhkəmlənməsi işinə xidmət edəcək. Prezident İlham Əliyev Azərbaycan ilə ABŞ arasında siyasi, iqtisadi, enerji, təhlükəsizlik sahələrində ikitərəfli münasibətlərin və eləcə də ölkəmizin ABŞ-ın ayrı-ayrı ştatları ilə əməkdaşlığının çox yaxşı səviyyədə olduğunu deyib. Dövlətimizin başçısı, eyni zamanda, ABŞ-ın bəzi regionlarında ictimaiyyətin ölkəmiz haqqında bir o qədər də dolğun məlumata malik olmadığını vurğulayaraq, Azərbaycan haqqında həqiqətlərin daha çox yayılmasının önəmini qeyd edib.

## BU NÖMRƏMİZDƏ


PAKİSTAN İSLAM RESPUBLİKASININ NÜMAYƏNDƏ HEYƏTİ VERGİLƏR NAZİRLİYİNDƏ OLUB 2

VERGİ MƏCƏLLƏSİNƏ EDİLƏN DƏYİŞİKLİKLƏR: TƏHLİLLƏR, ƏLDƏ OLUNAN NƏTİCƏLƏR... 3

İNSAN İNKİŞAFINA QOYULAN VƏSAİT GƏLƏCƏK UĞURLARIN TƏMƏL PRİNSİPİDİR 4

YERLİ VERGİ VƏ ÖDƏNİŞLƏR NAĞDSIZ ŞƏKİLDƏ APARILMALIDIR 5

# Pakistan İslam Respublikasının nümayəndə heyəti Vergilər Nazirliyində olub



**İyulun 27-də Vergilər Nazirliyində Pakistan İslam Respublikasının Ticarət katibi Muhammad Yunus Daqhanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov qonaqları salamlayaraq görüşdən məmnunluğunu ifadə edib, Azərbaycanla Pakistan arasında mövcud olan yüksək siyasi əlaqələri və strateji tərəfdaşlıq münasibətlərini qeyd edərək, qarşılıqlı əməkdaşlığın ildən-ilə genişləndiyini və bütün sahələri əhatə etdiyini bildirib. Nazir müavini Azərbaycan və Pakistanın dövlət başçılarının səmimi dostluq münasibətlərinin ikitərəfli əməkdaşlığa xüsusi töhfə verdiyini söyləyib və iqtisadi əlaqələrin daha da dərinləşdirilməsinin zəruriliyini vurğulayıb.

Söhbət zamanı Azərbaycanda vergi inzibatçılığının daha da təkmilləşdirilməsi, vergi ödəyicilərinin hüquqlarının və vergi potensialının genişləndirilməsi, eyni zamanda investisiyaların cəlb olunması istiqamətində bu il Vergi Məcəlləsində edilən dəyişikliklər barədə qonaqlara ətraflı məlumat verilib. S.Məmmədxanov vurğulayıb ki, dəyişikliklərin əsas məqsədi sahibkarların, xüsusilə kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın səviyyəsinin yüksəldilməsi, nağdsız əməliyyatların həcminin artırılması, bankların likvidliyinin və bilavasitə vergi mühtinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviqi, dürüst və şəffaf uçotun qurulmasıdır. Ölkəmizin vergi sistemində aparılan modernləşmə prosesi ilə bağlı fikirlərini bölüşən nazir müavini qeyd edib ki, Vergilər Nazirliyi tərəfindən aparılan islahatlar nəticəsində Azərbaycan biznesə başlama meyarları sahəsində Dünya Bankının hesabatında yüksək göstəriciyə layiq görülüb.

Pakistan İslam Respublikasının Ticarət katibi Muhammad Yunus Daqha Azərbaycanda əldə olunan sosial-iqtisadi inkişafın böyük maraqla qarşılandığını, iki ölkə arasındakı mövcud dostluq münasibətlərinin iqtisadi müstəviyə keçirilməsinin zəruriliyini qeyd edib, bu sahədə yüksək potensialın olduğunu diqqətə çatdırıb. O, Azərbaycan-Pakistan investisiya forumunun iki ölkə arasında iqtisadi və ticari əlaqələrin daha da genişləndirilməsi baxımından faydalı olacağını vurğulayıb. Ölkəmizin vergi sistemində aparılan islahatların təqdirəlayiq olduğunu bildirən qonaq vergi güzəştlərinin təyin edilməsi, qeyri-neft sektorunun vergiyə cəlb olunması, biznes, investisiya mühitinin daha da yaxşılaşdırılması, vergi rejiminin təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılması, eləcə də kiçik və orta sahibkarlığa dəstək məsələlərini doğru hədəflər kimi qeyd edib. Muhammad Yunus Daqha söhbət zamanı hər iki ölkənin vergi və gömrük xidmətləri arasında əlaqələrin dərinləşdirilməsi, təcrübə mübadiləsi aparılmasının vacibliyini də vurğulayıb.

Görüşdə yaxın gələcəkdə ölkələrimiz arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan - dünya mətbuatının gözü ilə...

**ABŞ-ın nüfuzlu iqtisadi nəşri olan «Forbes»** öz səhifələrində oxucularına ölkəmizlə bağlı maraqlı məqalə təqdim edib. «Şərqlə Qərbin qovuşduğu bir məkan - Azərbaycan. Əsrarəngiz təbiəti, mötəbər tədbirlərin ünvanı - Bakı». Məqalədə yer alan bu sözlərin müəllifi Stefan Rabimov Şərqin qapısı sayılan Bakının gözəlliyindən bəhs edərək vurğulayır ki, qədimliyi ilə müasirliyin vəhdətindən doğan Bakı mötəbər tədbirlərə - «Eurovision 2012» mahnı müsabiqəsinə, 2015-ci ildə birinci Avropa Oyunlarına uğurla ev sahibliyi edib. Bu il isə Bakı İslam Həmrəyliyi Oyunlarında Yaxın Şərq, Asiya və Afrika regionlarından 56 ölkənin idmançılarını böyük qonaqpərvərliklə qarşılayıb.

«Azərbaycan belə tədbirlərin dinamikasını qorumaq niyyətindədir», - yazan müəllif vurğulayır ki, bu kimi mötəbər layihələr ölkəyə milyonlarla turistin gəlməsinə də zəmin yaradır. Formula-1 milyardlarla dollara malik assosiasiyadır. İndi Bakı ilə Formula-1 möhtəşəm cütlüyə çevrilib.

Azərbaycanda turizmin inkişafına da nəzər yetirən müəllif 12 iqlim qurşağından 9-nun bu ərazinin payına düşdüyünü vurğulayır. Yazıda ölkəmizin təbiətinin, zəngin mədəniyyətinin, eləcə də ləziz mətbəxinin əcnəbilərin böyük marağına səbəb olduğu qeyd edilir. Azərbaycanı Qafqazın xəzinəsi adlandıran Stefan Rabimov oxucularını ölkəmizə səfər etməyə çağırır.

**Britaniyanın nüfuzlu «The Independent» qəzeti** Bakıya turist kimi gəlməyin üstünlüklərindən bəhs edir. Sintiya Dreşerin müəllifi olduğu məqalədə Azərbaycana turist kimi gəlmək istəyənlər üçün viza sisteminin sadələşdirildiyi qeyd edilir. Bildirilir ki, «Asan e-visa» sistemi ilə artıq onlayn olaraq qısa müddətdə ölkəmizə viza əldə etmək mümkündür. Bakının coğrafi mövqeyindən bəhs edən müəllif şəhərin Xəzərin sahilində, yarımadada yerləşdirildiyi bildirir. Dənizboyu uzanan milli park, sərin Bakı küləyi yay vaxtı istirahəti gözəlləşdirən amillər kimi qeyd olunur.

Daha sonra məqalədə Bakı şəhərinin görməli yerləri haqqında məlumat verilir. Heydər Əliyev Mərkəzi, Şirvanşahlar Sarayı, İçərişəhər, Dövlət Bayraq meydanı, Alov qüllələri, və s. kimi yerlərin turist olaraq görülməsinin vacib olduğu bildirilir.

**Pakistanın «The Destination» qəzetində** «Azərbaycan - turizm məkanı» sərlövhəli məqalə dərc olunub. Məqalədə zəngin tarixi və mədəni irsi, gözəl təbiəti olan Azərbaycanın dünyanın hər yerindən qonaqları özünə cəlb etdiyi bildirilir, ölkəmizdə turizmin bütün növlərinin inkişafı üçün geniş imkanların olduğu diqqətə çatdırılır. Qeyd olunur ki, Azərbaycanın iqlimi yay və qış istirahətinin təşkilinə şərait yaradır. Azərbaycanda turizm sahəsi gündən-günə inkişaf edir və iqtisadiyyatın mühüm sahələrindən birinə çevrilib.

Müəllif yazır ki, ulu öndər Heydər Əliyev tərəfindən təsdiq edilmiş müvafiq dövlət proqramlarının icrası ölkədə turizmin inkişafı və beynəlxalq turizm bazarına inteqrasiyanın təməlinin qoyulması üçün şərait yaradıb. Bunun davamı olaraq, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2011-ci ilin ölkədə «Turizm İli» elan edilməsi və «Eurovision-2012» mahnı müsabiqəsinin Bakıda keçirilməsi bütün dünyadan turistlərin bu ölkəyə axınını təmin edib, turizm sənayesinin inkişafına güclü təkan verib.

# Azərbaycanın suveren kredit reytinqi əvvəlki səviyyəsində qaldı

«Standard ənd Purz» (Standard and Poor's) reytinq agentliyi Azərbaycan Respublikasının suveren kredit reytinqinin ənənəvi qiymətləndirməsini aparıb və müvafiq hesabatını açıqlayıb. Maliyyə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, agentlik Azərbaycan Respublikasının uzunmüddətli və qısamüddətli xarici və milli valyutada suveren kredit reytinqini dəyişməyərək müvafiq olaraq 'BB+/B' səviyyəsində, mənfi proqnoz ilə saxlayıb.

«Standard ənd Purz» reytinq agentliyinin yaydığı son hesabatda reytinqin dəyişməz olaraq saxlanılmasına əsas səbəb kimi ölkənin möhkəm fiskal mövqeyi, xüsusilə Azərbaycan Respublikası Dövlət Neft Fondunun xarici valyutada ehtiyatlarının mövcudluğu göstərilir.

Agentlik hesab edir ki, tədiyyə balansına olan təzyiqlərin aradan qalxacağı, ölkənin iqtisadi inkişaf göstəricilərinin gözlənilən artımı və daxili bank sistemində sabitliyin möhkəmlənməsi nəticəsində reytinq üzrə proqnoz mənfidən müsbətə keçirilə bilər.

# Uğura aparan yol düzgün maariflənmədən keçir

*Vergilər Nazirliyinin rəsmi saytı bu sahədə səmərəli rol oynayır*

Öz fəaliyyətində daim yeniliklərə imza atan, vergi ödəyicilərini, Azərbaycanda fəaliyyət göstərən yerli və əcnəbi biznes təmsilçilərini ölkənin vergi sistemində tətbiq olunan yeniliklər, həyata keçirilən islahatlar barədə mütəmadi olaraq məlumatlandıran Vergilər Nazirliyi tərəfindən maarifləndirmə məqsədilə bukletlər, praktiki vəsaitlər hazırlanaraq nazirliyin rəsmi internet saytında yerləşdirilir, həmçinin vergi ödəyicilərinin elektron poçt ünvanlarına göndərilir. Rəsmi internet saytında investorların maarifləndirilməsi məqsədilə təbliğat-təşviqat xarakterli materiallar da geniş yer tutur. Ölkəmizdə sahibkarlığın inkişafı sahəsində görülən işlər, sahibkarlıq fəaliyyəti və investisiya qoyuluşları üçün nəzərdə tutulan güzəşt, azadolma və digər stimullaşdırıcı tədbirlərin əsas istiqamətləri, tətbiq olunan vergi növləri barədə dolğun məlumatlar saytda öz əksini tapır.

***«Bir pəncərə»dən görünən mənzərə...***

Vergilər Nazirliyinin rəsmi saytında yerləşdirilən materialda qeyd olunur ki, ölkəmizdə sahibkarlığın inkişafına əlverişli biznes mühitinin yaradılması, sahibkarlıq subyektlərinin dövlət orqanlarında qeydiyyata alınması prosedurlarının asanlaşdırılması məqsədilə ölkə başçısının «Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin «bir pəncərə» prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında» sərəncamı ilə sahibkarlıq fəaliyyəti subyektlərinin vahid dövlət qeydiyyatının aparılması Vergilər Nazirliyinə həvalə olunmuşdur. «Bir pəncərə» sisteminin tətbiqindən sonra Azərbaycanda biznesə başlama prosedurları 15-dən 2-yə və bunun üçün sərf olunan vaxt 30 gündən 2 günə endirilmiş, bununla da qeydiyyatdan keçən fiziki və hüquqi şəxslərin sayı xeyli artmışdır.

«Doing Business 2017» hesabatına görə, 2009-2016-cı illərdə Azərbaycanda aparılmış 27 islahatdan 7-si qeydiyyat sahəsi ilə, 5-i vergitutma ilə bağlı olmuşdur. «Biznesə başlama» indikatorunda Azərbaycan üçün müəyyən edilmiş «Etalon qanunvericiliyə yaxınlıq» (DTF) indeksi 97,75% təşkil etmişdir ki, bu da dünya üzrə kifayət qədər yüksək standartlara uyğundur. Hazırda Azərbaycan «Biznesə başlama» indikatoru üzrə dünyada 5-ci, postsovet ölkələri arasında isə 1-ci yerdə qərarlaşıb. 2016-2017-ci illər üzrə «Qlobal rəqabətlilik Hesabatı»nda ölkəmiz əvvəlki hesabatla müqayisədə mövqeyini 3 pillə yaxşılaşdıraraq 138 ölkə arasında 37-ci mövqeyə yüksəlmiş və bu göstərici üzrə MDB məkanında liderlik mövqeyini qoruyub saxlamışdır.

***Güzəşt və azadolmalar***

İnvestisiyaların təşviqi və əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə son dövrlərdə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər nəticəsində vergi güzəşt və azadolmalarının sayı artmışdır. Saytda sahibkarlıq fəaliyyəti və investisiya qoyuluşları üçün nəzərdə tutulmuş güzəşt, azadolma və digər stimullaşdırıcı tədbirlərin əsas istiqamətləri barədə də geniş məlumat verilir. Qeyd edilir ki, həyata keçirilən sənayeləşmə siyasətinə uyğun olaraq, ölkə başçısının müvafiq fərman və sərəncamlarına əsasən kimya, təkrar emal, yüngül sənaye, gəmiqayırma və əczaçılıq sahələri üzrə müvafiq olaraq Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ və Pirallahı sənaye parkları, habelə Mingəçevir, Pirallahı və AMEA yüksək texnologiyalar parkları, həmçinin Neftçala və Masallı sənaye məhəllələri yaradılmışdır. Sənaye və texnologiya parklarına investisiya qoyuluşlarının stimullaşdırılması məqsədilə 1 yanvar 2013-cü il tarixdən başlayaraq sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər sənaye və texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən etibarən 7 il müddətinə mənfəət (gəlir), əmlak və torpaq vergilərindən azad edilmişdir. Eyni zamanda, sənaye və texnologiyalar parkında istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi və istehsal məqsədilə sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan şəxslər tərəfindən müvafiq təsdiqedici sənəd əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı - rezidentin sənaye və texnologiyalar parkında qeydiyyata alındığı tarixdən 7 il müddətinə əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad edilmişdir.

İnvestisiyaların təşviqinin stimullaşdırılması məqsədilə 2016-cı ildən başlayaraq investisiya təşviqi sənədini almış hüquqi şəxslərin və fərdi sahibkarların həmin sənədi aldığı tarixdən 7 il müddətinə əldə etdikləri mənfəətin (gəlirin) 50 faizi mənfəət (gəlir) vergisindən, bu fəaliyyətdə istifadə etdikləri müvafiq əmlaka görə əmlak vergisindən, istifadə etdikləri torpaqlara görə torpaq vergisindən azad edilmişdir. Eyni zamanda, investisiya təşviqi sənədini almış hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq təsdiqedici sənəd əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı - investisiya təşviqi sənədinin alındığı tarixdən 7 il müddətinə əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad edilmişdir.

Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan hüquqi və fiziki şəxslər həmin fəaliyyətlə əlaqədar mənfəət (gəlir), ƏDV, əmlak vergisi və sadələşdirilmiş vergidən 2019-cu ilin yanvarın 1-dək azad edilmişdir. 2016-cı il fevralın 1-dən etibarən 7 il müddətində yerli bank və xarici bankın ölkəmizdə fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont və faiz gəlirləri gəlir vergisindən azad edilmişdir.

2016-2017-ci illər üzrə «Qlobal rəqabətlilik Hesabatı»nda ölkəmiz əvvəlki hesabatla müqayisədə mövqeyini 3 pillə yaxşılaşdıraraq 138 ölkə arasında 37-ci mövqeyə yüksəlmiş və bu göstərici üzrə MDB məkanında liderlik mövqeyini qoruyub saxlayıb

***Xarici ölkələrlə qarşılıqlı əməkdaşlıq sazişləri***

Vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər vergi orqanlarında qeydiyyata alınmadan onlar tərəfindən təyin edilən vergi agenti vasitəsilə Azərbaycan Respublikasında vergi öhdəliklərinin yerinə yetirilməsi üzrə seçim hüquqları vardır.

Azərbaycan Respublikası 53 dövlətlə ikiqat vergitutmanın aradan qaldırılması haqqında ikitərəfli müqavilələr imzalamış, onlardan 49-u qüvvəyə minmiş və tətbiq olunmaqdadır. Bununla yanaşı, Danimarka, İspaniya, İsrail və İordaniya ilə imzalanmış analoji sənədlərin qüvvəyə minməsi üçün müvafiq prosedurlar bitdikdən sonra qüvvəyə minəcəkdir. 10 ölkə ilə ikitərəfli və 2 çoxtərəfli «Vergi qanunvericiliyinə əməl olunması üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında» sazişlər imzalanmışdır. 7 ölkə ilə ikitərəfli və 1 çoxtərəfli «Vergi cinayətlərinə qarşı mübarizədə əməkdaşlıq haqqında», 8 ölkə ilə ikitərəfli «Əməkdaşlıq haqqında» sazişlər imzalanmışdır.

Hasilatın Pay Bölgüsü Haqqında sazişlərə (HPBHS) əsasən, 1994-cü ildən etibarən neft-qaz sahəsi üzrə xüsusi vergi rejimi tətbiq edilməyə başlanılmışdır ki, hal-hazırda ümumilikdə qüvvədə olan 23 sazişlə xüsusi vergi rejimində fəaliyyət göstərən vergi ödəyicilərinə, yalnız mənfəət vergisi istisna olmaqla, digər vergilərə güzəştlər müəyyən edilmişdir.

Azərbaycanda investisiya əvəzsiz milliləşdirilmir, rekvizisiya edilmir və onlara nəticələrinə görə digər oxşar tədbirlər tətbiq olunmur. Belə tədbirlər investorlara vurulmuş zərərin, o cümlədən itirdikləri faydanın əvəzi tam həcmdə real dəyər üzrə ödənilməklə yalnız ölkənin qanunvericilik aktları əsasında həyata keçirilə bilər. Azərbaycan Respublikası ilə 47 ölkə arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında ikitərəfli sazişlər imzalanmışdır.

***Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması***

Ölkədə biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində son dövrlərdə görülmüş işlər çərçivəsində sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması xüsusi önəm kəsb edir. Bu cür yoxlamalar 2015-ci il noyabrın 1-dən 2 il müddətinə dayandırılmış, lisenziya tələb edilən fəaliyyət növlərinin və icazələrin sayı azaldılmış, onların verilməsi üçün tələb olunan prosedurlar sadələşdirilmişdir. Eyni zamanda, elektron gömrük xidmətləri genişləndirilmiş, vergi inzibatçılığı daha da təkmilləşdirilmiş, sahibkarların elektrik təchizatı şəbəkəsinə qoşulması sahəsində tələblər asanlaşdırılmış, həmçinin investisiyaların və ixracın təşviqi, yerli istehsalın dəstəklənməsi, kənd təsərrüfatı məhsullarının istehsalı və emalının stimullaşdırılması, ümumilikdə sahibkarlıq fəaliyyətinə göstərilən dövlət dəstəyinin daha da genişləndirilməsi ilə bağlı sistemli islahatlar həyata keçirilmişdir.

*Hazırladı:*
**A.NƏBİYEVA**

# Vergi Məcəlləsinə edilən dəyişikliklər: təhlillər, əldə olunan nəticələr...

## *Sahibkarlar vergi güzəşti və azadolmalarından necə yararlanırlar?*

**Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamenti 2012-2016-cı illər üzrə vergi ödəyiciləri tərəfindən vergi orqanlarına təqdim edilmiş vergi bəyannamələri və onların əlavələrinin təhlili əsasında sahibkarlara verilmiş vergi güzəştləri və azadolmalarının nəticələrini müəyyənləşdirib.**

Aparılmış monitorinqin yekunlarına əsasən müəyyən edilib ki, Vergi Məcəlləsində nəzərdə tutulmuş azadolma və güzəştlərdən idxalda ƏDV-dən və aksizdən azad edilmə, bələdiyyə vergiləri ilə bağlı güzəştlər istisna olmaqla 85 azadolma və 23 güzəşt növü mövcuddur. Güzəşt və azadolmaların yalnız 50,9%-i barədə məlumatlar bəyannamələrdə və onların əlavələrində, 50,9%-i barədə məlumatlar isə nazirliyin «Axtarış-hesabat» informasiya sistemində öz əksini tapıb.

Departamentdən verilən məlumatda qeyd olunur ki, müvafiq tədiyyələr üzrə aparılmış təhlillərə əsasən, vergi ödəyicilərinə verilmiş güzəşt və azadolmalar nəticəsində itirilmiş vergi məbləğinin həcmi 2016-cı ildə 2012-ci illə müqayisədə 13,5 dəfə artıb. Bu illər ərzində güzəşt və azadolmalardan istifadə edən vergi ödəyicilərinin sayında 6% artım müşahidə olunub. Son illərdə Vergi Məcəlləsinə edilən dəyişikliklər nəticəsində ƏDV üzrə azadolmalardan istifadə edən vergi ödəyicilərinin sayında da əhəmiyyətli artım olub. 2016-cı il üzrə azadolma hüququndan istifadə edən vergi ödəyicilərinin sayının artması, əsasən, buğda ununun və çörəyin istehsalı və satışı ilə məşğul olan vergi ödəyicilərinin hesabına baş verib.

### *Mənfəət vergisi üzrə güzəşt və azadolmalar*

Təhlillər nəticəsində müəyyən edilib ki, 2 güzəşt və 16 azadolmanın mövcud olduğu mənfəət vergisi üzrə hesablanmış güzəşt məbləği son 3 ildə artmaqda davam edib. Təqdim olunan bəyannamələr üzrə güzəşt edilmiş mənfəət vergisi hesablanmış mənfəət vergisinə münasibətdə 2015-ci ildə 5,3 dəfə, 2016-cı ildə isə 1,8 dəfə çox olub. Ümumilikdə mənfəət vergisi üzrə 2012-2016-cı illər ərzində güzəşt və azadolma hüququndan istifadə edən vergi ödəyicilərinin sayı 1,8 dəfə artıb.

2015-2016-cı illərdə güzəşt və azadolmaların həcminin kəskin artımının əsas səbəbi, Vergi Məcəlləsinin 106.1.5-ci maddəsinə uyğun olaraq, Dövlət Neft Fondunun vergidən azad edilən gəlirlərinin (xarici valyutaların manata nisbətən müsbət məzənnə fərqinin) 2015-ci ildə 23.880,2 milyon manat və 2016-cı ildə 6.843,8 milyon manat təşkil etməsi ilə bağlıdır. Fondun məzənnə fərqindən əldə olunan gəlirləri nəzərə alınmasa, 2016-cı ildə vergidən azad olunan gəlirlərin həcmi 2012-ci illə müqayisədə 4,8 dəfə artıb, 2015-ci illə müqayisədə isə 15,8% azalıb. Vergi Məcəlləsinin 106.1.16-cı maddəsi («Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında» Qanuna əsasən hüquqi şəxslərə ödənilən kompensasiya) üzrə bəyannamədə müvafiq sətrin mövcud olmasına baxmayaraq, son 5 il ərzində bu sətrin vergi ödəyiciləri tərəfindən doldurulmadığı müəyyən edilib. Bir sıra mənfəət vergisi ödəyiciləri müvafiq hesabat dövründə işçi saylarının olmasına baxmayaraq, vergi orqanlarına boş bəyannamələr təqdim ediblər. 2012-ci ildə 1323, 2013-cü ildə 854, 2014-cü ildə 1756, 2015-ci ildə 1314 və 2016-cı ildə 1007 vergi ödəyicisi işçi sayını bəyan etsə də, vergi orqanlarına mənfəət vergisi üzrə boş bəyannamələr təqdim edib.

### *ƏDV üzrə güzəşt və azadolmalar*

Son illərdə Vergi Məcəlləsinə edilən dəyişikliklər nəticəsində ƏDV üzrə azadolmalardan istifadə edən vergi ödəyicilərinin sayında kifayət qədər artım müşahidə olunur. Vergi Məcəlləsinin 164-cü maddəsi ilə tənzimlənən ƏDV üzrə 37 azadolma növü müəyyən edilib ki, onlardan da 2-si 2017-ci ildən tətbiq olunmaqdadır. ƏDV azadolmaları üzrə itirilmiş vergi məbləğinin xüsusi çəkisi 2012-ci ildə 9,9%, 2013-cü ildə 8%, 2014-cü ildə 17,8%, 2015-ci ildə 47,7% və 2016-cı ildə 72,7% təşkil edib. Göründüyü kimi, illər üzrə ƏDV azadolmalarının xüsusi çəkisində artım müşahidə edilir. Vergi ödəyiciləri tərəfindən təqdim olunmuş bəyannamə məlumatlarına əsasən, ƏDV-dən azad edilən dövriyyə məbləğləri 2012-ci ildə 13%, 2013-cü ildə 7,7%, 2014-cü ildə 34,6%, 2015-ci ildə 84,2%, 2016-cı ildə isə 40,6% artıb ki, bu da son 5 il ərzində ƏDV üzrə vergidən azad olunan əməliyyatların həcminin 3,8 dəfə yüksəldiyini göstərir. ƏDV bəyannamələri üzrə 18% dərəcə ilə vergiyə cəlb olunan dövriyyələr üzrə isə eyni tendensiya nəzərə çarpmır. 2012-ci və 2013-cü illərdə vergiyə cəlb olunan dövriyyədə müəyyən qədər artım müşahidə edilsə də, 2014-cü ildən etibarən dinamikanın azalan xətt üzrə getdiyi müşahidə olunmaqdadır. Yəni, illər üzrə ƏDV dövriyyəsindəki artım, əslində, vergidən azad və vergiyə 0% dərəcə ilə cəlb olunan əməliyyatların hesabına baş verib. ƏDV-yə 18% dərəcə ilə cəlb olunan vergi ödəyicilərinin dövriyyələrində baş vermiş azalmalar əsas etibarilə neft-qaz və tikinti sektorunda fəaliyyət göstərən vergi ödəyicilərinin dövriyyələrinin aşağı düşməsi və bir sıra ƏDV ödəyicilərinin ləğv edilməsi hesabına yaranıb. ƏDV-yə 0% dərəcə ilə cəlb olunan dövriyyələrdə baş vermiş artımlar isə, əsasən, qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlər və ya qanunlar çərçivəsində aparılan əməliyyatlar və malların ixracı üzrə əməliyyatlarda baş vermiş artımlar hesabına baş verib. 2016-cı il üzrə azadolma hüququndan istifadə edən vergi ödəyicilərinin sayının artması isə, əsasən, buğda ununun və çörəyin istehsalı və satışı ilə məşğul olan vergi ödəyicilərinin hesabına yaranıb.

Təhlillər göstərir ki, ƏDV ödəyiciləri tərəfindən də hesabat dövründə işçi saylarının olmasına baxmayaraq, vergi orqanlarına boş bəyannamələr təqdim edilməsi hallarına rast gəlinir. 2012-ci ildə 739, 2013-cü ildə 1001, 2014-cü ildə 1236, 2015-ci ildə 973 və 2016-cı ildə 756 ƏDV ödəyicisi işçi sayı bəyan etməsinə baxmayaraq, vergi orqanlarına boş bəyannamələr ünvanlayıb.

### *Əmlak vergisi üzrə güzəşt və azadolmalar*

7 azadolma və 6 güzəştin nəzərdə tutulduğu əmlak vergisinin ödəyiciləri tərəfindən təqdim edilmiş bəyannamə məlumatlarının təhlili göstərir ki, müəssisələrin əmlak vergisindən azad olunan əmlakının orta illik qalıq dəyəri son 5 ildə 1,9 dəfə artaraq 2016-cı ildə 9.157,2 milyon manata çatıb. Bu vergi növündən azad olunan əmlakın orta illik qalıq dəyərinin illər üzrə dinamikası isə belədir: 2013-cü ildə 11,2%, 2014-cü ildə 22,2%, 2015-ci ildə 9,8%, 2016-cı ildə isə 25,8% artım. Azadolmaların həcminə nəzər yetirdikdə boru kəmərlərinin, dəmir və avtomobil yollarının, rabitə və enerjiötürücü xətlərin, meliorasiya və suvarma sistemi obyektlərinin, peyklərin və digər kosmik obyektlərin dəyərinin daha çox olduğu nəzərə çarpır.

### *Gəlir vergisi üzrə güzəşt və azadolmalar*

Bu vergi növü üzrə vergidən azad edilən gəlirlərin həcmi 2016-cı ildə 2015-ci illə müqayisədə 37,4 dəfə artıb. Artımın əsasən kənd təsərrüfatı məhsullarının istehsalı və satışı ilə məşğul olan vergi ödəyicilərinin hesabına baş verdiyi müəyyən edilib. Eyni zamanda, vergidən azad olunan fəaliyyətlə bağlı xərclərdə də 2015-ci illə müqayisədə 2016-cı ildə analoji artımlar olub və nəticədə vergidən azad edilən gəlirlər üzrə gəlir vergisi 57,1% çoxalıb.

Buna baxmayaraq, g əlir vergisi bəyannamələrinə əsasən, vergidən azad edilən gəlirləri bəyan edən fərdi sahibkarların sayı və azad olunan gəlirlərin həcmi real göstəricilərdən xeyli aşağı olub. Belə ki, uçot baza məlumatlarına əsasən, 2017-ci il yanvarın 1-nə qədər əsas fəaliyyət növü kənd təsərrüfatı məhsullarının istehsalı olan 152.936 fiziki şəxsin 80.118-nin (52,4%) vəziyyəti aktiv olub, lakin 2016-cı ildə cəmi 64 vergi ödəyicisi tərəfindən azad olunan gəlirləri bəyan edilib.

Gəlir vergisi ödəyicilərinin də öz işçi saylarının uçotunu gizlətdiyi, bu barədə vergi orqanlarına boş bəyannamə təqdim etmələri müəyyənləşib. 2012-ci ildə 527, 2013-cü ildə 715, 2014-cü ildə 793, 2015-ci ildə 730, 2016-cı ildə isə 558 vergi ödəyicisi vergi orqanlarına gəlir vergisi üzrə boş bəyannamələr təqdim edib.

### *Sadələşdirilmiş vergi üzrə güzəşt və azadolmalar*

Digər tədiyyə növləri kimi, sadələşdirilmiş vergi ödəyiciləri üçün də son illərdə əhəmiyyətli şəkildə güzəşt və azadolmalar tətbiq olunub. Vergi Məcəlləsinin 219.7-ci maddəsinə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçıları 2014-cü il yanvarın 1-dən 5 il müddətinə, 219.8-ci maddəsinə əsasən körpələr evləri, körpələr evi-uşaq bağçaları, uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evləri isə 2014-cü il yanvarın 1-dən 10 il müddətinə sadələşdirilmiş vergini ödəməkdən azad ediliblər. Məcəlləyə uyğun olaraq, həmin maddələr üzrə 2016-cı ildə sadələşdirilmiş vergidən azadolma Bakı şəhəri üzrə 1,1 milyon manat, digər şəhər və rayonlar üzrə isə 0,1 milyon manat olmaqla, ümumilikdə 1,2 milyon manat təşkil edib.

Vergi Məcəlləsinin 218.4.3-cü maddəsinə uyğun olaraq, 2016-cı il ərzində yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsinə görə sadələşdirilmiş vergi tutulmur. Vergi orqanlarına təqdim edilən bəyannamələrə əsasən 1462,6 min kvadratmetr əmlak sahəsinin təqdim olunması sadələşdirilmiş vergidən azad edilib. Azadolma üzrə təqdim olunan əmlak sahəsi və yerləşdiyi zonaya uyğun olaraq aparılmış hesablamalara əsasən, bu təqdimetmələrdən itirilmiş vergi məbləği 33,9 milyon manat təşkil edib.

Yüksək texnologiyalar əsasında ixrac yönümlü və yüksək rəqabət qabiliyyətli sənaye məhsullarının istehsalının artırılması, investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması məqsədilə sənaye və texnologiya parklarına və investisiya təşviqi sənədi almış vergi ödəyicilərinə verilən güzəşt və azadolmalar son dövrlərdə iqtisadi prioritetlərdəndir. Bu sahədə aparılan təhlillər göstərir ki, sənaye və texnologiya parklarına və investisiya təşviqi sənədi almış vergi ödəyicilərinə verilən güzəştlər nəticəsində onların işçi sayında və dövriyyə məbləğlərində artım baş verib.

> Dünya təcrübəsindən də göründüyü kimi, sahibkarlığı stimullaşdırmağın ən yaxşı vasitəsi vergi inzibatçılığının təkmilləşdirilməsi, optimal vergi mexanizminin yaradılması və vergi yükünün aşağı salınmasıdır

### *Güzəşt və azadolmalar tənbəlliyə rəvac verməməlidir...*

Göründüyü kimi, dövlət sahibkarlara kifayət qədər güzəşt edərək onların fəaliyyətini stimullaşdırmaq üçün bir sıra vergi azadolmaları və güzəştlər tətbiq edir. Ümumi statistikadan da məlum olur ki, bu səmərəli siyasət vergi ödəyicilərinin sayının artmasına səbəb olsa da, bəzi sahibkarların müxtəlif illərdə dövlət büdcəsinə ödədiyi vergilərin həcmi güzəştin müqabilində o qədər də yüksək deyil. Bununla bərabər, bir sıra üzdəniraq iş adamları güzəştlərdən sui-istifadə etməklə qarşılıqlı hörmət və əməkdaşlığa xələl gətirirlər. Bir neçə vergi növü üzrə işçi saylarının uçotunun gizlədilməsi, vergi orqanlarına boş bəyannamələrin təqdim olunması bunu bir daha təsdiqləyir.

Sahibkarlar güzəştlərin əbədi olması barədə təsəvvür və vərdişlərdən də uzaq olmalıdırlar. Bir çox ölkələrin təcrübəsindən göründüyü kimi, vergi güzəşti və azadolmaları müəyyən dövr üçün həmin sahənin «ayağa qaldırılması» və inkişaf etdirilməsinə kömək məqsədilə verilir. Yəni bu güzəştlər əbədi deyil və müəssisənin normal gəlir əldə etmək imkanları yarandıqdan sonra dayandırılır. Ona görə də sahibkarlar güzəşt tətbiq olunduğu dövrdə yaradılmış bu fürsətdən səmərəli şəkildə yararlanmalı, istehsal və xidmət sahələrini genişləndirməli, vergi güzəşti sayəsində əldə etdikləri vəsaitləri təkrar investisiya mənbəyi kimi istifadə etməlidirlər. Təəssüf ki, bəzi hallarda sahibkarlar bu güzəştləri həyat tərzinə çevirir və tənbəlləşir, vergi ödəmək vərdişindən uzaqlaşırlar. Güzəştlər dövrü başa çatdıqdan sonra onlar vergi ödəməyi sanki ağır yük kimi qəbul edir, vergi intizamına əməl etməkdə çətinlik çəkirlər.

Dünya təcrübəsindən də göründüyü kimi, sahibkarlığı stimullaşdırmağın ən yaxşı vasitəsi vergi inzibatçılığının təkmilləşdirilməsi, optimal vergi mexanizminin yaradılması və vergi yükünün aşağı salınmasıdır. Bu siyasət özünü daha yaxşı doğruldur və bütün sahibkarların geniş fəaliyyəti üçün əlverişli imkanlar yaradır. Bu baxımdan, 2017-ci ildə Azərbaycanın vergi qanunvericiliyində edilmiş dəyişikliklərdə vergi inzibatçılığının təkmilləşdirilməsi və vergi yükünün aşağı salınması əsas prioritetlərdən olub. Bu il yanvarın 1-dən qüvvəyə minən Vergi Məcəlləsində vergi yükünün azaldılması və pərakəndə ticarət fəaliyyətində ƏDV-nin ticarət əlavəsindən hesablanması məqsədilə çox mühüm maddələr yer alıb. Sahibkarların vergi yükünün azaldılması ilə yanaşı, onların dövriyyə vəsaitlərinə qənaət edilməsi, habelə ixracı stimullaşdırmaq məqsədilə ixrac fəaliyyəti ilə məşğul olan şəxslərin apardıqları əməliyyatlardan yaranan ƏDV üzrə artıq ödənilmiş vergilərin öz müraciətləri əsasında geri qaytarılması müddəti 45 gündən 20 günə endirilib. Yəni, sahibkarlığın uzunömürlü və davamlı yüksəlişinin əsas vasitəsi azad və rəqabətli biznes mühiti, səmərəli vergi siyasəti və vergi yükünün azalması ilə müşayiət olunan asan inzibatçılıq və digər amillərdir. Azərbaycanda həmin istiqamətlər üzrə ən münbit şərait təmin edilib, ona görə də sahibkarlar dünyada qəbul olunmuş bu «qızıl prinsipləri» öz fəaliyyət proqramına çevirməlidirlər.

**Elbrus CƏFƏRLİ**

# Vergi ödəyicilərinə keyfiyyətli xidmət göstərilir

Vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi, sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə vergi orqanı olmayan iri şəhər və rayonlarda yaradılmış vergi ödəyicilərinə xidmət mərkəzlərində vətəndaşlara müasir standartlara uyğun vergi xidmətləri göstərilir. Xidmət mərkəzlərində ödəyicilərə vergilər barədə məlumat və izahatların alınması, fiziki şəxslərin qeydiyyata alınması və ya qeydiyyatdan çıxarılması, hüquqi və fiziki şəxslərin təsərrüfat subyektlərinin (obyektlərinin), NKA-larının qeydiyyatı və qeydiyyatdan çıxarılması, ƏDV qeydiyyatı və qeydiyyatdan çıxarılması, uçot məlumatlarının dəyişdirilməsi, bütün növ elektron xidmətlər, hazır sənədlərin və arayışların təhvil verilməsi, «Asan imza»nın, habelə istifadəçi kodu, şifrə və parolun əldə edilməsi və ya dəyişdirilməsi, əmək müqavilələrinin elektron informasiya sisteminə daxil edilməsi və digər xidmətlər göstərilir.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentindən verilən məlumata görə, hazırda sayı 57-yə çatan xidmət mərkəzlərində 2017-ci ilin yanvar-iyun ayları ərzində 293.082 vergi ödəyicisi qəbul edilib, onlara 458.513 xidmət göstərilib.

Bu ilin ilk yarısında göstərilən xidmətlərin, həmçinin vergi orqanları tərəfindən keçirilən görüşlərin və ünvanlı xidmətlərin monitorinqi və təhlili zamanı məlum olub ki, xidmət mərkəzləri tərəfindən 2017-ci ilin yanvar ayında ən çox vergi uçotuna alınmaq (60,8%) və bəyannamələrin elektron formada göndərilməsi ilə bağlı xidmətlər (12,8%) göstərilib. Müqayisə üçün deyək ki, 2016-cı ilin yanvar ayında ən çox göstərilmiş xidmət bəyannamələrin elektron göndərilməsi ilə bağlı (27,4%) olub, vergi uçotuna alınma ilə bağlı xidmətlər isə ümumi xidmətlərin 22%-ni təşkil edib. Aparılmış təhlillər nəticəsində 2017-ci ilin yanvar ayında xidmət mərkəzinə müraciət etmiş vergi ödəyicilərinin və ya onların səlahiyyətli nümayəndələrinin 39,8%-nin son bir ildə 4 dəfə və daha çox, 21,1%-nin 2-3 dəfə e-xidmətlərdən istifadə üçün xidmət mərkəzlərinə müraciət etdiyi müəyyənləşdirilib.




**Vergilər Nazirliyinin təqdim etdiyi elektron xidmətlərdən vergi ödəyiciləri tərəfindən sərbəst istifadəni təmin etməklə növbədə gözləmə hallarının minimuma endirilməsi üçün müvafiq tədbirlərin görülməsinə başlanılıb**

Departamentin məlumatında o da bildirilir ki, xidmət mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi, inzibati xərclərinin azalması, Vergilər Nazirliyinin təqdim etdiyi elektron xidmətlərdən vergi ödəyiciləri tərəfindən sərbəst istifadəni təmin etməklə növbədə gözləmə hallarının minimuma endirilməsi üçün müvafiq tədbirlərin görülməsinə başlanılıb. Bununla yanaşı, 2017-ci ilin əvvəlindən Vergilər Nazirliyinin strukturlarında və vergi inzibatçılığında edilən dəyişikliklərə uyğun olaraq vergi ödəyicilərinə xidmət sahəsində aparılan işlərin səmərəliliyinin və keyfiyyətinin artırılması, o cümlədən göstərilən xidmətlərin əhatəsinin genişləndirilməsi, xidmətlərin göstərilmə müddətlərinin optimallaşdırılması, vergi ödəyicilərinə xidmət mərkəzlərində və «ASAN xidmət» mərkəzlərində vergi ödəyicilərinə göstərilən xidmətlər üzrə vahid icra və uçot mexanizmlərinin tətbiqi məqsədilə «Vergi ödəyicilərinə xidmətlərin göstərilməsi Qaydaları»nda əlavə və dəyişikliklər edilib.

**Aytən NƏBİYEVA**

# E-arayışla bağlı müraciətlərin sayı 1 milyon 200 mini keçib

«Elektron hökumət» portalı istifadəçilərə müxtəlif məzmunlu fərdi məlumatlar üzrə arayışları vahid mərkəzdən əldəetmə imkanı yaradır. Portalda istifadə olunan xidmətlər arasında elektron arayışlara müraciət sayı son dövrlər artıb və bu günədək 17 arayış növü üzrə 1.252.176 dəfə müraciət qeydə alınıb.

Statistik məlumata görə, iş yerinə dair arayış xidmətinə 608.034, vətəndaşa aid fərdi məlumatlar üzrə arayışa 275.054, yaşayış yeri haqqında arayışa 75.643, diplom haqqında arayışa 64.473, şəxsiyyət vəsiqəsi məlumatları üzrə arayışa 61.200, il ərzində rabitə xidmətləri üzrə ödənişlər haqqında arayışa 27.964, rabitə xidmətlərinə görə borcun olmaması barədə arayışa 25.192, vətəndaş haqqında «Tələbə-məzun» dövlət elektron məlumat sistemindən çıxarışa 21.439, vətəndaşın adına qeydiyyatda olan nəqliyyat vasitəsi haqqında elektron arayışa 17.325, ümumtəhsil məktəbləri şagirdlərinin təhsil aldıqları yer haqqında arayışlara 17.029 dəfə müraciət olunub. Eyni zamanda, vətəndaşın hərbi xidmət keçməsi barədə arayışa 16.532, ümumtəhsil məktəblərində çalışan pedaqoji və texniki heyətin iş yeri haqqında elektron arayışa 12.253, vətəndaşın hərbi qeydiyyatda olması barədə arayışa 11.846, «Su təchizatı və tullantı sularının axıdılması xidmətləri»nə dair abunentə aid məlumatın verilməsi xidmətinə 8249, «Su təchizatı və tullantı sularının axıdılması xidmətləri»ndən istifadəyə görə borcun olmaması haqqında arayışa 6127, turizm fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin lisenziyaları haqqında arayışlara 2545, dənizçinin şəxsiyyət sənədi üzrə isə 1271 müraciət qeydə alınıb.

Arayışların elektron formada təqdim olunması vaxta qənaətlə yanaşı, bürokratik maneələri aradan qaldırır. E-arayışları PDF formatında yaddaşa verdikdən sonra çap edilməsi və istənilən elektron poçt ünvanına göndərilməsi mümkündür. Qeyd edək ki, «Elektron hökumət» portalında «Elektron arayışlar» bölməsində «Elektron arayışların yoxlanılması» xidməti də yerləşdirilib. Bu xidmətin köməyi ilə arayışın üzərindəki QR-kod və ştrix kodlar vasitəsilə onun etibarlılığını yoxlamaq mümkündür. Həmin xidmətə bu günədək 57.112 dəfə müraciət olunub.



## Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Alqı-satqı zamanı torpaq vergisi

***Mülkiyyətimdə olan 2 hektar kənd təsərrüfatı təyinatlı torpağı satdığım halda, bu əməliyyatdan hansı vergi öhdəliyim yaranır?***

Vergi Məcəlləsinin 150.1.9-cu maddəsinin müddəalarına əsasən, torpaq, yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius ödəmə mənbəyində vergini tutmağa borcludur.

Vergi Məcəlləsinin 218.4.5-ci maddəsinin müddəalarına görə, mülkiyyətində olan torpaq sahələrinin təqdim edilməsini həyata keçirən şəxslər bu Məcəllənin 218.1-ci maddəsinin müddəalarından asılı olmayaraq, sadələşdirilmiş verginin ödəyiciləridir.

Vergi Məcəlləsinin 220.8-ci maddəsində qeyd edilmişdir ki, bu Məcəllənin 218.4.5-ci maddəsində göstərilən şəxslər üçün kənd təsərrüfatı təyinatlı torpaqlar üzrə sadələşdirilmiş vergi həmin Məcəllənin 206.1-1-ci maddəsinə uyğun olaraq hesablanmış torpaq vergisinin 2 misli məbləğində hesablanır.

**Qeyd olunanlara əsasən:**

Fiziki şəxsin mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin təqdim edilməsi zamanı alqı-satqı müqaviləsini təsdiq edən notarius tərəfindən həmin torpaq sahəsi üzrə hesablanmış torpaq vergisinin 2 misli məbləğində sadələşdirilmiş vergi hesablanır və satıcıdan tutulmaqla dövlət büdcəsinə ödənilir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# İnsan inkişafına qoyulan vəsait gələcək uğurların təməl prinsipidir

Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq qurumlar dünya ölkələrinin inkişaf meyarlarını müəyyən edərkən, ilk növbədə, insan inkişafı indeksini əsas götürürlər: İnsan amili hər bir ölkəni, cəmiyyəti düşündürən mühüm meyardır. İnsan kapitalına diqqətin artırılması, dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən müxtəlif xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması son nəticədə əhalinin də dövlət qurumlarına etimadının güclənməsinə, nəhayət, insanların arzu və istəklərinin təmin edilməsinə yaxşı imkanlar açır. Azərbaycanda insan inkişafı ilə bağlı dövlətimizin başçısı İlham Əliyevin fikirləri müasir dövrdə bu mövzunun nə dərəcədə aktual olduğunun bariz nümunəsidir: «Azərbaycan çox zəngin ölkədir. Bizim çox zəngin sərvətimiz vardır. Ancaq bizim ən böyük resursumuz insanlardır, onların biliyi, savadıdır. Öz imkanlarımızdan səmərəli istifadə etməklə maddi kapitalı insan kapitalına çevirməliyik və biz bunu edirik».

«Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»ndə də məhz ölkə vətəndaşlarının rifahı - insan amili önə çəkilmişdir. Sənəddə mühüm istiqamətlərdən biri 2025-ci ildən sonrakı dövr üçün vətəndaşların sosial rifah halının daha da yaxşılaşdırılmasının və insan inkişafı indeksinin ən yüksək həddə çatdırılmasının təmin edilməsidir. Bu hədəf baxışı insan potensialının reallaşdırılması üçün geniş imkanlar təmin etməyi nəzərdə tutur. Sənəddə yaxşı həyat keyfiyyəti üçün ilkin şərtin rifah, səhiyyə və təhsilin olduğu vurğulanır.

Dünya İqtisadi Forumu öz hesabatında bəyan edir ki, hökumətlərin insan ehtiyatlarından səmərəli istifadə etməsi üçün bu sahəyə daha çox sərmayə qoymaq vacibdir. Çünki insan inkişafına qoyulan hər bir vəsait qat-qat artıq səmərə verir. Forumun «İnsan kapitalı indeksi»nin əsasında ölkələrin sağlam, təhsilli və ixtisaslı məhsuldar qüvvələr və ya əməkçilər yetişdirmək qabiliyyəti dayanır. Burada dörd əsas faktora diqqət yetirilir: təhsil, sağlamlıq, işçi qüvvəsi və məşğulluq, sağlam iş mühiti. Son illər Azərbaycan bu sahədə dünya ölkələri sırasında sürətli irəliləyişə nail olmuşdur. Təşkilatın «Qlobal rəqabətqabiliyyətlilik Hesabatı»na (2016) əsasən, respublikamız 144 ölkə arasında ali təhsil və təlimin keyfiyyəti göstəricisinə görə 78-ci, ali təhsilə cəlbolunma üzrə 94-cü, işçi heyətinin təlimi üzrə 82-ci, ibtidai təhsilin keyfiyyətinə görə 81-ci yerdədir.

Azərbaycan hökumətinin insan kapitalının hazırlanması prosesinin keyfiyyətinin daha da yüksəldilməsi sahəsində qarşıya qoyduğu məsələlərin həlli ölkəmizi bu göstəricilərin hər birində xeyli irəliyə çıxaracaq. Dövlət başçısının sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasının Məşğulluq Strategiyası»nın həyata keçirilməsi üzrə Dövlət Proqramı bu istiqamətdə görülən işlərin daha da genişləndirilməsinə rəvac vermişdir. Proqramda insan inkişafı və əhalinin məşğulluğu sahəsində dövlət siyasətinin ardıcıllığı, işçi qüvvəsinə tələbatın stimullaşdırılması, səmərəli işgüzar mühitin formalaşması, struktur islahatlarının dərinləşdirilməsi, investisiya fəallığının daha da artırılması və insan kapitalının yüksək inkişaf səviyyəsi başlıca yeri tutur. Sənəddə sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafının, eləcə də fərdi əmək fəaliyyəti ilə məşğul olanların iqtisadi həvəsləndirilməsi, peşə təhsilinin əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırılması məqsədilə bu sahədə ixtisas və ixtisaslaşma təsnifatının sadələşdirilməsi, daxili və xarici miqrasiya proseslərinin tənzimlənməsinin təkmilləşdirilməsi məsələləri də önə çəkilir. Qeyri-neft sektorunun - aqrar, toxuculuq, emal müəssisələri və xidmət sahələrinin inkişafı hesabına yeni iş yerlərinin yaradılması, kənd yerlərində sosial və kommunal infrastrukturun inkişaf etdirilməsi yolu ilə əhalinin, xüsusilə gənclərin miqrasiya səviyyəsinin azaldılması da qarşıda duran mühüm vəzifələrdəndir.

Proqramda işçi qüvvəsinə tələbatın stimullaşdırılması və insan kapitalının inkişaf etdirilməsi sahəsində də bir sıra məsələlərin reallaşdırılması nəzərdə tutulmuşdur. Hazırda ölkəmizdə əmək bazarının tələbləri nəzərə alınaraq, rəqabət qabiliyyətli ixtisaslar üzrə kadrların hazırlanması istiqamətində peşə təhsili sisteminin təkmilləşdirilməsi, iş yerində təhsilin davam etdirilməsi, insan amilinin inkişafına yönəldilmiş investisiyaların cəlbi üçün imkanların müəyyənləşdirilməsi, beynəlxalq məşğulluq təsnifatına əsaslanan təkmilləşdirilmiş peşə təsnifatlarının, peşə və təlim standartlarının tətbiq olunması və s. tədbirlər həyata keçirilir.

Dövlət proqramlarında Vergilər Nazirliyi qarşısında da bir sıra vəzifələr qoyulmuşdur. Ölkədə ədalətli rəqabət mühitinin formalaşdırılması məqsədilə qanunsuz sahibkarlığın və vergi orqanında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olma hallarının qarşısının alınması ilə bağlı tədbirlərin gücləndirilməsi istiqamətində Vergilər Nazirliyi qarşısında mühüm vəzifələr müəyyən edilmişdir. Bu və digər tədbirlərin həyata keçirilməsi üçün Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş «Vergi sisteminin inkişafı üzrə Strateji Plan» çərçivəsində 2020-ci ilədək daha mütərəqqi, mükəmməl və beynəlxalq standartlara tam cavab verən vergi sistemi formalaşdırılacaq, vergi qanunvericiliyi Avropa İttifaqı qanunvericiliyinə və ÜTT-nin tələblərinə uyğunlaşdırılacaq.

Vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq münasibətlərinin qurulması, özəl vergi məsləhətçiləri, vergi ödəyicilərinə xidmət mərkəzlərində göstərilən xidmətlərin spektrinin genişləndirilməsi və xidmət səviyyəsinin artırılması, elektron xidmətlərin genişləndirilməsi məhz insanların rahat fəaliyyətinə xidmət edir. Əhalinin vergi mədəniyyətinin yüksəldilməsi, gələcəyin intizamlı, savadlı vergi ödəyicilərinin formalaşdırılması işinin səmərəliliyinin artırılması üzrə strateji məqsədə nail olmaq üçün bu sahədə beynəlxalq təcrübənin araşdırılması, məlumatlandırma vasitələrinin, xüsusi dərslik və tədris vəsaitlərinin hazırlanması və s. istiqamətdə aparılan məqsədyönlü tədbirlər davamlı xarakter daşıyır. Vergi ödəyiciləri, o cümlədən əhalinin digər təbəqələri arasında vergi mədəniyyətinin yüksəldilməsinə xidmət edən məlumatlandırma, maarifləndirmə və təbliğat işinin səmərəliliyini təmin etmək məqsədilə sahibkarların və istehlakçıların ictimai birlikləri, təhsil müəssisələri ilə əməkdaşlıq genişləndirilir, bu sahədə müvafiq tədris-metodiki təlimatlar hazırlanır.

**Rəşad SADIQOV**

# «Azərbaycan İqtisadi İslahatlar icmalı»nın növbəti sayı işıq üzü görüb

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən nəşr edilən «Azərbaycan İqtisadi İslahatlar icmalı»nın növbəti sayı üç dildə - Azərbaycan, ingilis və rus dillərində oxucuların ixtiyarına verilib. Mərkəzin mətbuat xidmətindən bildiriblər ki, buraxılışda «İxtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi»nin qısa məzmunu oxucuların diqqətinə çatdırılıb. Ölkədə aqrar sahədə aparılan islahatlara icmalda xüsusi yer ayrılıb. «Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı» və «Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı» şərh edilərək sahibkarları maraqlandıran əsas suallara cavab verilib. Eyni zamanda, icmalda güzəştli vergi tutulan ölkələrin və ərazilərin siyahısı, həmçinin Mənzil Məcəlləsində edilmiş dəyişikliklərin sadə izahı islahatların mahiyyətini başa düşmək üçün faydalıdır.İcmalda «Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanında edilmiş dəyişikliklərin ekspertlər tərəfindən qısa şərhi, habelə «Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında» Qanuna dəyişikliklərin edilməsi də öz əksini tapıb.

Qeyd edək ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən ölkədə aparılan iqtisadi islahatlar, bu istiqamətdə imzalanmış sənədlər barədə geniş ictimaiyyətdə informasiya təminatını yaxşılaşdırmaq, beynəlxalq qurum və təşkilatları dolğun məlumatlandırmaq üçün yaradılan «Azərbaycan İqtisadi İslahatlar icmalı» adlı (Azerbaijan Economic Reforms Review) bülleten onlayn olaraq üç dildə - Azərbaycan, rus və ingilis dillərində mütəmadı yayımlanır. İcmal həm Azərbaycanda, həm də ölkənin hüdudlarından kənarda yüz minlərlə oxucuya çatdırılır.

# «ASAN xidmət»in internet səhifəsi yenilənib

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən verilən məlumata görə «ASAN xidmət»in tam yenilənmiş korporativ saytı vətəndaşların istifadəsinə verilib.

Əsas səhifəsi 8 bölmədən ibarət olan yeni saytın «ASAN xidmətlər», «ASAN Kommunal», «Səyyar ASAN xidmət» bölmələrinə daxil olmaqla, vətəndaşlar göstərilən xidmətlər barədə ətraflı məlumat ala bilərlər. «Onlayn növbə» bölməsinin köməyi ilə «ASAN xidmət» mərkəzlərinə gəlmədən qabaqcadan müvafiq xidmət üçün növbəyə yazılmaq mümkündür. «ASAN könüllülük» məktəbinin fəaliyyəti ilə yaxından tanış olmaq və həyata keçirdiyi layihələr haqqında ətraflı məlumat əldə etmək üçün yenilənmiş saytda könüllülərin «ASAN School» təcrübə məktəbinə interaktiv keçid yerləşdirilib. Saytın «Statistika» bölməsində «ASAN xidmət»ə daxil olan qurumların fəaliyyəti haqqında ətraflı məlumatlar əks olunub. Səhifədə, həmçinin, «ASAN Ödəniş» portalına keçid təqdim edilib. «Çağrı mərkəzi» bölməsində isə «ASAN xidmət»in 108 qısa nömrəsi ilə vətəndaşları dövlət xidmətləri haqqında məlumatlandıran «Çağrı mərkəzi»nin fəaliyyəti barədə məlumat yer alıb.

Saytdan istifadənin maksimum asanlaşdırılması üçün yenilənmiş və rahat daxili naviqasiya sistemi tətbiq olunub. Bu, vətəndaşlara cəmi bir neçə əməliyyatla onları maraqlandıran suallara cavab tapmağa imkan verir. Bundan başqa, «ASAN xidmət»in yeni saytı mobil telefon istifadəçilərinin rahatlığı üçün də uyğunlaşdırılıb və Azərbaycan və ingilis dillərində fəaliyyət göstərir.

Saytın bu və digər yenilikləri ilə www.asan.gov.az ünvanı vasitəsilə tanış olmaq mümkündür.

# Güzəştlə mənzil almaq istəyən vətəndaşların kateqoriyaları genişləndirilib

«Güzəştli mənzil» elektron sisteminin istifadəyə verilməsindən sonra vətəndaşların müraciətlərinin qəbuluna başlanılıb. Sistem Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri güzəştlə əldə etmək hüququna malik vətəndaşların müraciətlərinin real vaxt rejimində, vahid və ictimaiyyət üçün açıq olan qeydiyyatının aparılmasını təmin edir.

Agentlikdən verilən məlumata görə, may ayından indiyədək «Elektron hökumət» portalında yaradılmış bu sistem vasitəsilə 5797 müraciət qeydiyyata alınıb, müvafiq kateqoriyalara aid 5376 vətəndaşın mənzil əldə etmək hüququ təsdiqlənərək həmin şəxslər üçün «elektron kabinet» yaradılıb. Vətəndaşların rahatlığı üçün «Güzəştli mənzil» elektron sistemindən istifadə ilə bağlı sualları cavablandırmaq, «elektron kabinet»in yaradılmasında onlara kömək göstərmək məqsədilə müraciətlərin elektron qaydada qəbulu ilə yanaşı, müvafiq «ASAN xidmət» mərkəzləri vasitəsilə də qəbul olunması imkanı yaradılıb. Məlumatda o da bildirilir ki, «Güzəştli mənzil» sistemin daha da təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilməkdədir.

Sistemin son funksional yeniliyi Agentliyin sərəncamında olan mənzilləri güzəştlə əldə etmək məqsədilə müraciət etmiş və şəxsi elektron kabinetə sahib olmuş vətəndaşlara qeydiyyat zamanı sistemə daxil etdikləri əlaqə vasitələrini istənilən an real vaxt rejimində dəyişmək imkanını təmin edir. Bu funksional yenilik vasitəsilə vətəndaşlar şəxsi «elektron kabinet»lərinə daxil olaraq «şəhər telefonu», «mobil telefonları», «elektron poçt ünvanı», «SMS bildirişlər üçün mobil telefon» və «faktiki yaşayış ünvanı» bölmələrində daha öncə qeyd etdikləri məlumatı yeniləyə bilərlər. Qeyd olunan dəyişikliklər istifadəçinin daim aktiv əlaqə vasitələrindən istifadə etməklə bildirişlərdən vaxtında xəbərdar olmasına xidmət edir.

Qeyd edək ki, ölkə başçısının 13 və 21 iyul 2017-ci il tarixli fərmanları ilə güzəştlə mənzil əldə etmək hüququ olan vətəndaşların kateqoriyaları genişləndirilib. Bununla bağlı qanunvericilikdə edilmiş dəyişikliyə əsasən, güzəştli ipoteka kreditini almaq və Agentliyin sərəncamında olan mənzilləri güzəştlə əldə etmək hüququ olan vətəndaşların mövcud kateqoriyalarından biri genişləndirilib və daha bir yeni kateqoriya isə əlavə olunub. Belə ki, «ən azı 15 il dövlət qulluğunda qulluq edən şəxs» adlı mövcud kateqoriya yeni redaksiyada «ən azı 15 il dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxsləri» də əhatə edəcək. Bununla yanaşı, yeni - «ən azı 3 il elmi vəzifədə işləyən elmi işçilər» kateqoriyası da əlavə olunub. Hər iki kateqoriyaya aid olan vətəndaşlar, yaşından və ailə vəziyyətindən asılı olmayaraq, güzəştlə mənzil əldə etmək hüququndan yararlana biləcəklər.

Agentlik yenilənmiş kateqoriyalara aid bütün vətəndaşların müraciətlərini qəbul etmək məqsədilə «Güzəştli mənzil» elektron sisteminin təkmilləşdirilməsi üzərində işləyir. Artıq «Ən azı 15 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxslər» adlı yenilənmiş kateqoriyaya aid vətəndaşların müraciətlərinin qəbuluna start verilib. Müraciətlər «Elektron hökumət» portalında (www.e-gov.az) yaradılmış «Güzəştli mənzil» sistemi vasitəsilə və ya Bakı şəhərində yerləşən 1, 3 və 5 saylı «ASAN xidmət» mərkəzlərində və Sumqayıt «ASAN xidmət» mərkəzində qəbul olunur. Dəyişikliklər və müvafiq inteqrasiya işləri tamamlandıqdan sonra «ən azı 3 il elmi vəzifədə işləyən elmi işçilər» adlı kateqoriyaya aid vətəndaşların da müraciətlərinin qəbulu başlayacaq. Hər iki yeni kateqoriyaya aid şəxslər Mənzil İnşaatı Dövlət Agentliyinin bütün layihələri çərçivəsində inşa edilən güzəştli mənzillərin satışı zamanı artıq qeydiyyatdan keçmiş digər kateqoriyalara aid vətəndaşlarla bərabər hüquqlara malik olacaqlar.

Xatırladaq ki, ölkə başçısının 2016-cı il 16 noyabr tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası» ilə vətəndaşlara bir sıra güzəştlərdən yararlanmaq imkanı verilir. Əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı fəaliyyətində bu qaydanı rəhbər tutan Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən satışa çıxarılacaq güzəştli mənzillərin qiymətinin yerləşdiyi ərazi üzrə orta bazar qiymətindən daha aşağı olması əsas güzəştlərdən biridir. Eyni zamanda, daha bir güzəşt vətəndaşlara tam təmirli və mətbəx mebeli ilə təchiz edilmiş vəziyyətdə təklif olunan mənzilləri güzəştli ipoteka krediti ilə əldə etmək imkanıdır. Qaydaya əsasən, güzəştlə mənzil əldə etmək hüququna malik vətəndaşlar güzəştli ipoteka kreditindən «Azərbaycan İpoteka Fondu» ASC-nin müvəkkil banklarının siyahısına daxil olan və «MİDA» MMC ilə əməkdaşlıq müqaviləsini bağlayan agent banklar vasitəsilə yararlana biləcəklər.

**AYTƏN**

Vergi güzəştlərinin tətbiqi ölkədən xarici dövlətlərə məhsul ixrac edən sahibkarların daşıma xərclərinin aşağı salınmasına və ixrac imkanlarının yaxşılaşmasına dəstək məqsədi daşıyır.



# Yerli vergi və ödənişlər nağdsız şəkildə aparılmalıdır

**«Bələdiyyələrin statusu haqqında» Qanunun 43-cü maddəsinə edilmiş əlavə və dəyişikliyə, eyni zamanda «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» Qanunun 11.4-cü maddəsinə əsasən, yerli vergi və ödənişlərin ödənilməsi banklar, poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələri ilə həyata keçirilir. Bələdiyyələr tərəfindən yerli vergi və ödənişlərin nağd şəkildə qəbul olunması qadağandır.**

Vergilər Nazirliyinin metodiki rəhbərliyi altında bələdiyyələrdə vergi və ödənişlərin hesablanması, ödənilməsi qaydaları təkmilləşdirilmiş, Bələdiyyələrin Vergi İnformasiya Sistemi (BVİS) ilə Hökumət Ödəniş Portalına (HÖP) inteqrasiya alt modulu yaradılmış və ilkin olaraq Binəqədi rayonunun Binəqədi, Biləcəri, Binəqədi qəsəbə, Xocəsən, M.Ə.Rəsulzadə bələdiyyələrinin portala qoşulması ilə bağlı tədbirlər görülmüşdür. Qeyd edilən işlərin davamı olaraq, Vergilər Nazirliyi tərəfindən ötən ilin mart ayında Sabunçu rayonu Bakıxanov bələdiyyəsi, Sumqayıt şəhər bələdiyyəsi, Qaradağ rayonu Lökbatan bələdiyyəsi, Abşeron rayonunun Xırdalan və Saray bələdiyyələrində ödənilən yerli (bələdiyyə) vergi və ödənişlərin «Hökumət Ödəniş Portalı» infrastrukturuna inteqrasiya edilməsi məqsədilə aidiyyəti üzrə müraciət olunmuş və qısa müddət ərzində həllini tapmışdır.

Qeyd olunanlarla yanaşı, Vergilər Nazirliyi tərəfindən yerli (bələdiyyə) vergi ödəyicilərinin istifadəsi üçün «İnternet Bələdiyyə İdarəsi» (www.e-belediyye.gov.az) yaradılmışdır. Yerli (bələdiyyə) vergi ödəyiciləri bu elektron sistemə daxil olmaq üçün bələdiyyələrdən şifrə və parol almaqla və ya «Asan imza» və mobil imzadan istifadə etməklə həmin xidmətlərdən yararlana bilərlər. Bu elektron xidmətlərə yerli (bələdiyyə) vergi ödəyicilərinin torpaq və əmlakının onlayn qeydiyyata alınması, yenidən qeydiyyatı və qeydiyyatdan çıxarılması, şəxsi hesab vərəqəsinə baxış, hesablanmış vergilərə dair bildirişlərin əldə edilməsi, yerli (bələdiyyə) vergi ödəyicilərinin qeydiyyatda olduğu bələdiyyəyə onlayn müraciət və s. daxildir.

Ödəyicilər yaradılmış infrastruktura qoşulmuş bələdiyyə orqanları üzrə artıq ölkənin istənilən regionunda «Azərpoçt» MMC-nin və bankların ödəniş məntəqəsində və özünəxidmət terminallarında nağd formada, həmçinin ödəniş kartlarından istifadə etməklə HÖP-ün internet resursları və «Elektron hökumət» portalı vasitəsilə ödənişlərini nağdsız formada həyata keçirə bilərlər. Bunun üçün qeyd olunan istənilən üsulla yerli (bələdiyyə) vergi və ödənişlərin aparılması məqsədilə vergi ödəyicisinin eyniləşdirmə nömrəsindən (VÖEN) və ya şəxsiyyət vəsiqəsinin seriya və nömrəsindən istifadə edilə bilər.

> Yerli (bələdiyyə) vergi və ödənişlərin «Hökumət Ödəniş Portalı» infrastrukturuna inteqrasiya edilməsi məqsədilə aidiyyəti üzrə müraciət olunub və qısa müddət ərzində həllini tapıb

Yaradılmış bütün imkanlara baxmayaraq, təəssüf ki, bir sıra bələdiyyələrin nağdsız ödənişlərə hələ də riayət etmədikləri, yerli vergilərin toplanmasında şəffaflığın lazımi səviyyədə qurulmadığını, bəzi bələdiyyələrin ümumiyyətlə bu cür əməliyyatlara maraq göstərmədiklərinin şahidi oluruq. Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin Vergi qanunvericiliyinin tətbiqi şöbəsinin rəhbəri Gülnar İsayevanın sözlərinə görə, nazirlik bələdiyyələrin hüquqi maarifləndirmə işlərinin aparılmasına və metodiki köməklik göstərilməsinə böyük önəm verir, bələdiyyə üzvləri ilə tez-tez görüşlər təşkil edilir, Tədris Mərkəzinin inzibati binasında bələdiyyə nümayəndələrinin iştirakı ilə təlimlər keçirilir. Belə tədbirlərdə «Yerli vergi və ödənişlər haqqında» Azərbaycan Respublikası Qanununun müddəaları, bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərin mənfəət vergisinin, fiziki şəxslərin əmlak və torpaq vergilərinin, yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisinin hesablanması və ödənilməsi qaydaları, həmçinin, BVİS-in altsistemləri və onların xüsusiyyətləri, BVİS-də yerli verginin ödəyicisi olan fiziki şəxslərin uçota alınması, yerli (bələdiyyə) vergilərin hesablanması və tədiyyə bildirişlərinin elektron qaydada hazırlanması və yerli (bələdiyyə) vergilər üzrə daxilolmaların BVİS-ə işlənməsi prosedurları bələdiyyə nümayəndələrinin diqqətinə çatdırılmış və qeyd olunan məsələlər ətrafında müzakirələr aparılmışdır.

**Rəşad SADIQOV**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə Pakistanın Ticarətin İnkişafı Qurumu arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

Gələn ilin əvvəlində «SOCAR Polymer» MMC tərəfindən Kanada texnologiyası əsasında illik istehsal gücü 180 min ton polipropilen və Avstriya texnologiyası əsasında illik istehsal gücü 120 min tonluq yüksək sıxlıqlı polietilen olan istehsal xətlərinin istismara verilməsi nəzərdə tutulur.

Sumqayıt Kimya Sənaye Parkında avtomobil sənayesi üçün plastik tərkibli ehtiyat hissələri istehsalı yaradılacaq.

İyulun 31-də Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən vəsaitlərin cəlb edilməsi üzrə depozit hərracı keçirilib.

Azərbaycan ilə Yaponiyanın mülki aviasiya administrasiyaları arasında keçirilən danışıqlar nəticəsində iki ölkə arasında birbaşa aviareysin açılması barədə razılıq əldə edilib.

Sentyabrın 20-23-də İstanbulda keçiriləcək «CNR Food İstanbul 2017» Beynəlxalq qida sərgisində Azərbaycan da təmsil olunacaq.

# İxracla məşğul olan sahibkarlar üçün unikal imkan

**Qeyri-neft ixracının genişləndirilməsi, ixracın şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində ixracla bağlı müxtəlif alətlər vasitəsilə sahibkarlara yeni imkanlar yaradılır. «Made in Azerbaijan» brendinin dünyada tanıdılması, ixrac missiyalarının və vahid ölkə stendlərinin təşkili, xaricdə patent və sertifikatların alınması ilə bağlı dəstək və digər mexanizmlər tətbiq olunur. Azərbaycan sahibkarları qısamüddətli ixrac missiyalarında, beynəlxalq sərgilərdə vahid ölkə stendi ilə iştirak ediblər. Bu missiyalar zamanı məhsullarımız xarici bazarlara çıxarılır, müqavilələr imzalanır.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) yaradılmış «Bir pəncərə» İxraca Dəstək Mərkəzi ixracın stimullaşdırılmasında böyük rol oynayır. «Azexport» portalının nəzdində fəaliyyət göstərən bu Mərkəz Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibinə və imzalanmasına, habelə real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə imkan verir.

İİTKM-in eksperti Ayaz Çaparlının sözlərinə görə, hazırda mərkəzə inteqrasiya olunan dövlət orqanlarının nümayəndələri informasiya resursları vasitəsilə real vaxt rejimində məlumat mübadiləsi aparırlar: «Mərkəz bir sıra sertifikatların verilməsi ilə də məşğul olur. Bunlar ixrac edilən heyvanlara, heyvan mənşəli məhsullara və xammala beynəlxalq baytarlıq sertifikatı, bitki və bitkiçilik məhsullarının ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac, fitosanitar) sertifikatı, Avropa İttifaqı ölkələrinə yeyinti məhsullarının ixracı üçün keyfiyyət sertifikatı, malın mənşə ölkəsini təsdiq edən sertifikat, kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin ixracı üçün icazə, mədəni sərvətlərin ixracı üçün mühafizə şəhadətnaməsi, dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarda), audio və videomaterialların, malların (məmulatların) və dini məzmunlu başqa məlumat materiallarının ixracına razılıqdan ibarətdir».

> Mərkəz Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibinə və imzalanmasına, habelə real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə imkan verir

Sahibkarlar, həmçinin, «Bir pəncərə» İxraca Dəstək Mərkəzindən müxtəlif sahələr üzrə məsləhətlər alır, «Azexport» portalı üzərindən ixrac imkanlarını genişləndirir və Rəqəmsal Ticarət Qovşağının elektron xidmətlərindən də yararlanırlar. Ekspertin sözlərinə görə, ümumi strategiyanın tərkib hissəsi olaraq ilkin mərhələdə Azərbaycanda ixracatçıların, xüsusilə kiçik və orta sahibkarlıq subyektlərinin beynəlxalq ticarət əlaqələrinə rahat inteqrasiyasını təmin etmək məqsədilə vahid ixrac portalının yaradılması qarşıya önəmli məqsəd kimi qoyulmuşdu: «Bu, çox uğurlu bir təcrübə oldu. 400-dən artıq şirkət, 2 mindən çox məhsul bu portala inteqrasiya edildi və nəticədə dünyanın 40-dan artıq ölkəsindən 110 milyon dollardan çox ixrac sifarişləri alındı. Bu ixrac portalının yaradılması ixracın təşviqi mahiyyətini kəsb etməklə yanaşı, eyni zamanda, ixrac bazarlarının araşdırılması üçün çox güclü bir marketinq alətinə çevrildi».

Qeyd edək ki, Azərbaycan dünyada ilk ölkələrdən biridir ki, onlayn rejimdə ixracın vahid pəncərəsini yaradıb və bu, sahibkarlar üçün unikal bir imkandır.

**F. İKRAMQIZI**

# Sənayenin daha səmərəli inkişafına innovativ yanaşma

*Sənaye məhəllələri işsizlik probleminin aradan qalxmasına səbəb olacaq*

**Son illərdə Azərbaycan iqtisadiyyatının bütün sahələrində olduğu kimi, sənayenin inkişafı istiqamətində də böyük işlər görülüb, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoyub. Rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilib, yeni iş yerləri açılıb. Qeyri-neft sənayesinin inkişafına mühüm təsir göstərəcək sənaye məhəllələrinin yaradılması da bu gün diqqət mərkəzində saxlanılır. Bəs görəsən belə məhəllələrin yaradılmasının nə kimi müsbət tərəfləri var? Layihənin reallaşacağı təqdirdə hansı irəliləyişlər əldə olunacaq?**

Məsələyə münasibət bildirən millət vəkili Azər Badamovun sözlərinə görə, ölkə iqtisadiyyatının diversifikasiya olunaraq neftdən asıllığının aradan qaldırılması dövlətimizin iqtisadi siyasətinin təməlində dayanır və bu istiqamətdə aparılan işlər artıq öz nəticələrini verməkdədir: «Həyata keçirilən çoxlu sayda düşünülmüş iqtisadi layihələr sayəsində ümumi daxili məhsulun istehsalında neft sektorunun payı azalmağa doğru istiqamətlənmişdir. Qeyri-neft sektorunda əsas aparıcı sahə ölkənin sənayələşməsidir. Qəbul olunan və mərhələli şəkildə həyata keçirilən «Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı» və «Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı» nın yüksək səviyyədə icra olunması ümumilikdə ölkəmizdə sənaye istehsalı infrastrukturunun formalaşmasını, sahibkarlığın inkişafını sürətləndirmişdir. 2015-2020-ci illərdə sənayenin inkişafına dair dövlət proqramının istiqamətlərindən əsası sənaye və texnologiyalar parklarının, eləcə də sənaye məhəllələrinin yaradılması olmuşdur. Respublikamızın əsas böyük şəhərlərində sənaye parklarının yaradılması prosesi sürətlə həyata keçirilir. 2011-ci ildə Sumqayıt Kimya Sənaye Parkı və Balaxanı Sənaye Parkı, 2012-ci ildə Yüksək Texnologiyalar Parkı təşkil edilib. Mingəçevir Sənaye Parkı, Mingəçevir Yüksək Texnologiyalar Parkı, Qaradağ Sənaye Parkı və Neftçala Sənaye Məhəlləsi yaradılır və bütün bu işlər dövlət dəstəyi əsasında təşkil olunur».



> Sənaye parklarında istehsal olunan məhsulların ixracı ilə əlaqədar imza atılan, dəyəri yüz milyonlarla ölçülən müqavilələr artıq öz bəhrəsini verməkdədir

A.Badamov qeyd edib ki, sənaye parklarının yaxın və uzunmüddətli perspektivdə inkişafını stimullaşdırmaq məqsədilə ölkənin vergi qanunvericiliyində sənaye və texnologiyalar parkında çalışan fiziki və hüquqi şəxslərə, eləcə də parkların idarəedici təşkilat və operatorlarına gəlir, mənfəət, ƏDV, əmlak və torpaq vergiləri üzrə 7 illik güzəştlər nəzərdə tutulub. Görülən tədbirlər nəticəsində sənaye parklarında istehsal olunan məhsulların ixracı ilə əlaqədar imza atılan, dəyəri yüz milyonlarla ölçülən müqavilələr artıq öz bəhrəsini verməkdədir. Millət vəkilinin sözlərinə görə, sənaye məhəllələrinin yaradılması prosesi regionların sürətlə sənayeləşməsinə gətirib çıxaracaqdır: «Sənaye məhəlləsi - sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura malik olan, kiçik və orta sahibkarlar tərəfindən məhsul istehsalı və xidmət göstərilməsi üçün istifadə edilən ərazidir və bu məhəllələrin yaradılması regionlarda yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişaf etdirilməsinə, istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılmasına, kooperasiya əlaqələrinin güclənməsinə, kiçik və orta sahibkarlığın inkişafına və minlərlə yeni iş yerlərinin yaradılmasına xidmət edir. Sənaye məhəllələrində çalışacaq sahibkarlar üçün dövlət tərəfindən məsləhət, treninq, peşə hazırlığı xidmətlərinin təşkili, güzəştli kreditlərin verilməsi və səmərəli fəaliyyət üçün digər xidmətlərin göstərilməsi də həyata keçiriləcəkdir».

Qeyd edək ki, artıq Neftçala sənaye məhəlləsinin yaradılması ilə bağı işlər başa çatmaq üzrədir. Masallı sənaye məhəlləsinin yaradılmasına başlanılmış və bu günlərdə Prezident İlham Əliyev Hacıqabul sənaye məhəlləsinin yaradılması ilə bağlı sərəncam imzalamışdır. Dövlətimizin başçısı dəfələrlə vurğulamışdır ki, respublikamızın bütün rayonlarında sənaye məhəllələri yaradılmalıdır. Bütün bunlar Azərbaycanda geniş çeşidli rəqabət qabiliyyətli sənaye məhsullarının istehsalına, ixrac potensialının artmasına, işsizlik probleminin birdəfəlik aradan qalxmasına və ölkəmizin tamamilə sənayeləşməsinə gətirib çıxaracaqdır.

**FƏXRİYYƏ**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- İyulun 31-də Mərkəzi Bank tərəfindən vəsaitlərin cəlb edilməsi üzrə keçirilmiş növbəti depozit hərracında tələb **369,7 milyon manat,** hərracın nəticəsində bağlanılmış depozit əqdləri üzrə orta ölçülmüş faiz dərəcəsi isə **10,01%** təşkil edib.
- Bu ilin altı ayında Dövlət Neft Fondunun vəsaiti ilin əvvəlinə nisbətən **1643,9 milyon dollar** (büdcədənkənar gəlirlər **1288,8 milyon dollar** daxil olmaqla) və ya **4,96%**-dək artaraq 34.790,9 milyon dollar təşkil edib.
- Cari ilin yanvar-iyun aylarında quşçuluq fabriklərində diri çəkidə **38 min** ton (keçən il **30,4 min** ton) quş əti və **382 milyon** ədəd (keçən il **342,9 milyon** ədəd) yumurta istehsal olunub.
- 2017-ci il iyulun 1-i vəziyyətinə ölkə üzrə müəssisələrin ümumi sayının **80,8%-ni** kiçik müəssisələr təşkil edib.
- Azərbaycanda indiyədək verilmiş **173** investisiya təşviqi sənədi üzrə **1,6 milyard manat**lıq investisiya qoyuluşu nəzərdə tutulur.

# Mülki məsuliyyətin icbari sığortası

**Bir çox hallarda etibarnamə ilə avtomobilini satan vətəndaşlar avtonəqliyyat vasitəsilə bağlı qüvvədə olan mülki məsuliyyətin icbari sığortası müqaviləsinə xitam vermir, bu da onlar üçün gələcəkdə icbari sığorta ilə bağlı arzu-olunmaz vəziyyətin yaranmasına gətirib çıxarır.**

İcbari Sığorta Bürosundan (İSB) bildirilir ki, avtomobilin yeni sahibinin müqavilə müddəti ərzində həmin avtomobillə səbəb olduğu qəzalara görə «Bonus-malus» sistemi çərçivəsində hesablanan malus əmsalları (cərimələr), icbari sığorta müqaviləsi onun adına olduğundan, avtomobilin keçmiş sahibinə yazılır. Bu da onunla nəticələnir ki, sonuncu gələcəkdə başqa bir avtomobil alıb onunla bağlı icbari sığorta müqaviləsi bağlayarkən ona yazılmış həmin malus əmsalları üzündən daha yüksək sığorta haqqı ödəməli olur: «Misal üçün, əgər avtomobilin yeni sahibi bir neçə yol-nəqliyyat hadisəsi törədərsə, nəticədə əvvəlki sahibin adına yazılacaq malus əmsalı hətta ən yüksək cərimə sinfi olan 1-ə kimi çata bilər. Bu isə gələcəkdə yeni icbari sığorta müqaviləsi bağlandığı zaman ödəniləcək sığorta haqqının üç dəfəyədək artmasına səbəb olacaq. Bunu nəzərə alaraq, İSB avtomobil sahiblərinə alğı-satqı zamanı satılan avtomobillə bağlı qüvvədə olan icbari sığorta müqaviləsinə xitam verməyi tövsiyə edir».

Qeyd edək ki, «Bonus-malus» sistemi - əvvəlki sığorta müqavilələri üzrə sığortalının təqsiri üzündən baş verən sığorta hadisəsinin olub-olmamasından asılı olaraq sığorta haqlarını artıran və ya azaldan güzəştlər və əlavələr sistemidir. Ümumilikdə 17 bonus-malus sinfi mövcuddur ki, bunlardan ilk 5-i sığorta haqqının artmasına səbəb olan malus (cərimə) sinifləridir, 7-17-ci siniflər isə sığorta haqqının azalmasına səbəb olan bonus (güzəşt) siniflərinə aiddir.

Əslində, müqaviləyə xitamvermə proseduru çox sadədir. Avtomobil satılan zaman qüvvədə olan icbari sığorta müqaviləsinə xitam vermək üçün vaxtilə həmin müqavilənin bağlandığı sığorta şirkətinə müraciət etmək lazımdır. Bundan sonra şirkətin əməkdaşları satılan avtonəqliyyat vasitəsi ilə bağlı qüvvədə olan və şəxsin adına rəsmiləşdirilmiş icbari sığorta müqaviləsinə xitam verəcək, bununla da avtomobilin əvvəlki sahibi avtomobilin yeni sahibinin gələcəkdə törədə biləcəyi yol qəzalarına görə cərimə əmsallarından özünüzü qorumuş olacaq.

İSB-nin məlumatında o da bildirilir ki, avtonəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi zamanı qüvvədə olan icbari sığorta müqaviləsinə xitam verməyin daha bir cəlbedici cəhəti odur ki, bu zaman vaxtilə şəxsin ödədiyi sığorta haqqı müəyyən inzibati xərclər çıxıldıqdan sonra müqavilə müddətinin sonunadək olan dövr üzrə hissəsi sığorta şirkəti tərəfindən qaytarılır: «Misal üçün: müqavilənin müddətinin bitməsinə beş ay qalmış xitam edilirsə və ötən dövr ərzində hər hansı yol-nəqliyyat hadisəsi baş verməyibsə, sığorta şirkəti həmin beş ay üzrə olan məbləği hesablayaraq oradan müqavilənin bağlanmasına çəkilən inzibati xərcləri çıxır və yerdə qalan hissəni geri ödəyir. Bu isə, avtomobilin mühərrikinin həcmindən asılı olaraq, heç də az məbləğ olmur».

**AYTƏN**

# Məqsəd aqrar sektorun inkişafına nail olmaqdır

*Təsərrüfatların kooperasiya prinsipləri əsasında formalaşması daha effektiv nəticə verər*

Prezident İlham Əliyevin təsdiq etdiyi «Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı»nda ölkədə mövcud xırda təsərrüfatların iri kooperasiyalarda təmsil olunmaqla daha məhsuldar və səmərəli fəaliyyət göstərmələri üçün mühüm hədəflər müəyyənləşdirilmişdir.

Son illərdə ölkə ərazisində iri təsərrüfatların yaradılması aqrar istehsalın səmərəli təşkil edilməsi baxımından çox mühüm addımdır. Lakin iri təsərrüfatların fəaliyyəti birgə təsərrüfatçılıq formasına əsaslanmadığına görə, onlar kooperativlərlə eyniləşdirilməməlidir. Bununla belə, yaxın perspektivdə iri təsərrüfatların kooperasiya prinsipləri əsasında formalaşması məqsədəuyğun hesab edilir.

Fermerlərin və kənd təsərrüfatı məhsulları istehsalçılarının kooperativ təsərrüfatlarda birləşməsi onların təsərrüfat maraqlarının qorunmasına, aqrar istehsalın səmərəliliyinin yüksəldilməsinə, məhsullarının rəqabət qabiliyyətinin artmasına əhəmiyyətli təsir göstərəcəkdir. Bu baxımdan, kənd təsərrüfatında kooperasiyanın təşəkkül tapması həm dövlətin, həm də fermerlərin marağına uyğundur. Kooperasiya məhsulun istehsalı, emalı, saxlanması və satışı mərhələlərini əhatə edən səmərəli təsərrüfatçılıq sistemidir. Məlum olduğu kimi, aqrar sənaye kompleksində mənfəət və ya əlavə dəyərin əsas hissəsi kənd təsərrüfatı xammalının emalı və məhsulun satışı həlqəsində yaranır. Kooperativlər isə gəlirlərin «istehsal-emal-satış» həlqələri üzrə ədalətli bölgüsünə imkan verir. Kənd təsərrüfatında kooperasiya sisteminin əsas məqsədi kooperativ üzvlərinin təsərrüfat fəaliyyəti üçün onlara əlverişli şərait yaratmaqdan ibarətdir. Məhsul istehsalı ilə məşğul olan fermer istehsal etdiyi məhsulu satmaqda, habelə toxum, gübrə, texnika və digər vasitələri almaqda çətinlik çəkdiyi üçün bu vəzifələri fermerlərin özlərinin yaratdıqları kooperativlərə həvalə edir.

Dövlət Proqramının məqsədi kənd təsərrüfatı məhsulları istehsalçılarının birgə təsərrüfatçılıq fəaliyyətini təşviq etmək, könüllülük əsasında kənd təsərrüfatı kooperativlərinin təşkilinə əlverişli şərait yaratmaq, kooperativlərin dayanıqlı fəaliyyətinin təmini, həmçinin aqrar sahədə kooperasiyanın formalaşmasına və inkişafına dəstək verməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün Dövlət Proqramı çərçivəsində kooperativlərin fəaliyyəti ilə bağlı maarifləndirmənin və təbliğat-izahat işinin gücləndirilməsi, onların dövlət tərəfindən dəstəklənməsi, aqrar sektorun rəqabət qabiliyyətinin yüksəldilməsi, torpaqdan səmərəli istifadə, istehsalda səmərəliliyin təmin edilməsi, bu sahədə innovasiyaların tətbiqinə şərait yaradılması kimi vacib məsələlərin həlli nəzərdə tutulur.

Mövzu ilə bağlı müraciət etdiyimiz iqtisadçı ekspert Rəşad Əliyevin sözlərinə görə, hazırkı dövrdə qeyri-neft sektorunun ən mühüm sahəsi hesab edilən kənd təsərrüfatının inkişaf etdirilməsi prioritet istiqamətlərdəndir: «Digər sahələrdə olduğu kimi, dövlət tərəfindən aqrar sektorun inkişafına maneə törədən amillərin aradan qaldırılması və bu istiqamətdə stimullaşdırılma tədbirlərinin həyata keçirilməsində mühüm addımlar atılır. Hazırda ölkədə kənd təsərrüfarı məhsullarının əsas istehsalçıları xırda təsərrüfatlardır. Kiçik olduqları üçün az məhsul satdıqları səbəbindən, onların gəlirləri də təbii ki, az olur. Gəliri az olan fermerin isə müvafiq texnikaların əldə edilməsinə, müasir texnologiyalardan istifadə etməklə təsərrüfatın daha da intensivləşdirilməsinə və bir çox digər zəruri işləri həyata keçirməyə maddi imkanı çatmır. Bununla yanaşı, çoxlu xırda təsərrüfatlar mövcuddur ki, onlar ya az güclə işləyir, ya səmərəsiz çalışır, yaxud da ümumiyyətlə, torpaq sahələrindən istifadə etmirlər. Bunun bir sıra obyektiv səbəbləri də var. Misal üçün, 1-2 hektar torpağı olan şəxs ondan necə istifadə edəcəyini bilmir. Tərəvəz və bostan məhsullarının yetişdirilməsi kiçik sahələrdə bəlkə də xeyir verə bilər, ancaq pambıqçılıq, taxılçılıq və heyvandarlıq bu cür resurslara malik olan şəxslərə iqtisadi cəhətdən sərf etmir. Bütün bunlar son nəticədə torpaqlardan səmərəsiz istifadəyə, ölkənin potensialından yetərincə istifadə olunmamasına gətirib çıxarır. Məhz bu baxımdan, böyük təsərrüfatlar kiçiklərə nisbətən daha üstün cəhətlərə malikdir. Belə təsərrüfatlar həm müasir texnologiyalardan istifadə edir, həm ixtisaslı kadrlar cəlb edir, lazımi texnika alır, həm maliyyə mənbələrinə çıxış əldə edir, həm də böyük «ölçü effektinə» görə aşağı maya dəyəri ilə məhsul istehsal edə bilirlər. Onların iqtisadi səmərəsi danılmazdır. Buna görə də dövlət məhz belə təsərrüfatların fəaliyyət göstərməsində maraqlıdır və onların sayı artırılmalıdır. Kiçik təsərrüfatların kooperasiya üsulu ilə birləşməsi bu problemin aradan qaldırılmasına xidmət edə bilər».



**Fəxriyyə İKRAMQIZI**

## 2017-ci ilin avqust ayı ərzində vergi orqanına təqdim olunmalı bəyannamələr və ödənilməli VERGİLƏR

**2017-ci ilin iyul ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduğu**

- Əlavə dəyər vergisi bəyannaməsini,
- Aksiz bəyannaməsini,
- Yol vergisi bəyannaməsini,
- Mədən vergisi bəyannaməsini,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş vergi bəyannaməsini və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin avqust ayının 21-dən** gec olmayaraq vergiorqanına təqdim etməli və hesablanmış vergilər əmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsi cari ilin avqust ayının 21-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**Əmlak və torpaq vergisinin ödəyiciləri olan müəssisələr:**

- 2017-ci il üzrə hesablanmış torpaq vergisinin yarısını cari ilin **avqust ayının 15-dən** gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**2017-ci ilin 3-cü rübü üzrə hesablanmış əmlak** vergisinin cari ödəmələrini **avqust ayının 15-dən** gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**Vergilər avqust ayında ödənilir, bəyannamə** rüblük olaraq **oktyabrın 20-dən gec** olmayaraq təqdim edilir:

- Muzdlu işlə əlaqədar 2017-ci ilin iyul ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi **avqust ayının 21-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ildə **yanvar ayının 31-dən** gec olmayaraq, digər vergi ödəyiciləri isə 3-cü rüb üzrə bəyannaməni cari ilin oktyabr ayının 20-dən gec olmayaraq təqdim edirlər).
- Xüsusi notariusların 2017-ci ilin iyul ayı üzrə hesabladığı gəlir vergisi cari ilin **avqust ayının 21-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı

• **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**

• **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «**Onlayn rejimdə**» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə «**Oflayn rejimdə**» tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

• birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,

• ikinci dəfə yol verdikdə **20 faizi**,

• üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin iyul və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-cı ilin iyul və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Rusiya tütün məhsullarına aksizin artırılmasını təxirə salır

Dövlət Dumasının Aşağı Palatası tütün məhsullarına tətbiq olunan aksiz vergisinin dərəcəsinin artırılmasını 2018-ci ilin iyulunadək təxirə salmağı qərara almışdır. Xatırladaq ki, hazırda bu verginin dərəcəsi 1000 siqaret üçün 1562 rubl (26,44 ABŞ dolları) təşkil edir.

Rusiya qanunvericiliyinə görə, aksiz vergisinin artırılmasının təxirə salınması haqqında qərar parlamentin Yuxarı Palatasının təsdiqindən və Rusiya Prezidentinin fərmanından sonra qüvvəyə minə bilər. Hökumətin planına əsasən, gələn ilin iyul ayından tütün məhsulları üzrə aksiz vergisi 1000 siqaret üçün 1718 rubla (29 ABŞ dolları) qaldırılacaq. Əlavə edək ki, Rusiyanın nəhəng tütün bazarında BAT, «İmperial Brands», «Japon Tabaco» və «Philip Morris» kimi xarici şirkətlər üstünlük təşkil edir.

2013-cü ildən Rusiyada siqaret satışına məhdudiyyətlər qoyulmağa başlanmışdır. Tütün şirkətlərinə reklam vermək və sponsorluq etmək qadağan olunmuşdur.

# Braziliya vergiləri artırmağı planlaşdırır



Hökumətə yaxın mənbələrdən bildirilmişdir ki, Braziliyanın iqtisadi artımının ləngiməsi şəraitində qarşıya qoyulmuş hədəflərə nail olmaq məqsədilə benzinin qiyməti qaldırılacaq. Bundan əlavə, hökumətin bir sıra mallara və xidmətlərə tətbiq edilən ƏDV-nin dərəcəsini, eləcə də yanacaq idxalına vergini artırması gözlənilir. Ekspertlərin rəyinə görə, Maliyyə Nazirliyi bu addımları atmaqla dövlət büdcəsinə əlavə 3,2 milyard ABŞ dolları vəsait cəlb etməyi planlaşdırır.

Maliyyə naziri Enrike Meyrelyeşin sözlərinə görə, məşğulluq göstəricilərinin yaxşılaşması fonunda iyun ayında vergi daxilolmalarında artım müşahidə edilmişdir. Əgər iqtisadi artım sürətlənməzsə, hökumət yaxın vaxtlarda bir sıra vergilərin artırılmasını istisna etmir.

# Qumar oyunlarının qanunilәşdirilməsi vergi yığımını artırıb

ABŞ-ın Miçiqan ştatındakı Detroyt şəhərində fəaliyyət göstərən 3 kazino qumar oyunlarının leqallaşdırılmasından keçən 20 il ərzində xəzinəyə 4,5 milyard dollar vəsait köçürmüşdür. Qumar oyunları və gəlirlər haqqında qanunun qüvvəyə minməsinin 20 illiyi münasibətilə hökumət bu rəqəmi ictimaiyyətə açıqlamışdır. Bildirilmişdir ki, göstərilən rəqəmin 1,9 milyard dolları ştat miqyasında dövlət təhsil təşəbbüslərinə yönəldilmiş, qalan 2,6 milyard dollar isə Detroyt şəhərinin xəzinəsinə köçürülmüşdür.

1997-ci ildə qumar oyunlarının qanunilәşdirilməsindən sonra Miçiqan ştatında fəaliyyət göstərən kazinolar öz gəlirlərinin 18%-i qədər vergi ödəyirdilər. 2004-cü ildə isə vergi sistemi dəyişdi: oyun müəssisələri əldə etdikləri vəsaitin 8,1 faizini ştatın büdcəsinə, 10,9 faizini isə Detroyt şəhərinin xəzinəsinə köçürməyə başladılar.

# Vergidən yayınan ulduz futbolçu məhkəmə qarşısında…

«Real» (Madrid) futbol klubunun və Portuqaliya millisinin məşhur hücumçusu Kriştiano Ronaldo bu günlərdə məhkəmədə ifadə verib. Vergidən yayınmaqda ittiham olunan futbolçu saat yarım ərzində ifadə verdikdən sonra məhkəmə salonundan ayrılıb. İspaniya prokurorluğu futbolçunun 2010-cu ildən başlayaraq 14,7 milyon avro həcmində vergidən yayındığını iddia edir. Bu ittihamlar təsdiq olunarsa, K.Ronaldo 3 il 6 ay müddətinə həbs cəzasına və 28 milyon avro cərimə ödəməyə məhkum edilə bilər.

Xatırladaq ki, bir müddət əvvəl İspaniyada top qovan digər ulduz futbolçu Lionel Messi də 10 milyon avro məbləğində vergidən yayınmaqda təqsirli bilinərək, 21 ay müddətinə şərti həbs cəzasına məhkum edilmişdi.

# Böyük Britaniya elektron hesabatın tətbiqini təxirə salır

Hökumət kiçik biznesin məcburi şəkildə elektron vergi hesabatı verməsi barədə tələbin həyata keçirilməsini təxirə salmağı qərara almışdır. Əvvəlcə bu sistemin 2018-ci ilin aprelindən tətbiq edilməsi planlaşdırılırdısa, hazırda həmin qərarın qüvvəyə minməsi 2020-ci ilədək təxirə salınmışdır.

Hökumət nümayəndələri açıqlama verərək bildirmişlər ki, bu cür məcburi hesabatı ƏDV tutulan illik dövriyyəsi 85 min fund sterlinqdən artıq olan şirkətlər verəcək. Beləliklə, kiçik müəssisələr üçün elektron hesabat könüllü səciyyə daşıyacaq. Ümumilikdə isə həm hökumət, həm də biznes dairələri elektron hesabat standartlarının tədricən tətbiq edilməsinə tərəfdardırlar. Hökumət hesab edir ki, kiçik biznesə yeni standartlara uyğunlaşmaq, eləcə də münasib proqram təminatı tapmaq üçün vaxt verilməlidir. Ölkədə korporativ vergi üzrə məcburi elektron hesabatın tətbiqi 2020-ci ilə nəzərdə tutulduğu halda, ƏDV üzrə hesabatlar 2019-cu ildən tətbiq edilə bilər.

# Yenidən həccə getmək istəyən zəvvarlara vergi tətbiq edilib

Səudiyyə Ərəbistanı hökuməti yenidən həccə getmək istəyən zəvvarlar üçün vergi tətbiq edib. «Marva Tur» həcc-şirkətinin mətbuat xidmətindən məlumata görə, kim 2015 və 2016-cı illərdə həcc ziyarətində olub və bu il də həcc ziyarətinə getmək niyyətindədirsə, viza üçün 2000 rial (535 $) məbləğində verg ödəməlidir. Bununla əlaqədar «Marva Tur» şirkəti 2017-ci ildə həcc ziyarətinə yenidən gedən zəvvarların şirkətin ofisinə təcili olaraq müraciət etmələrini istəyib. «Təəssüf ki, vergi ödənişi edilmədən zəvvarların xarici pasportları səfirliyə göndərilməyəcək», - deyə şirkətdən verilən məlumatda bildirilir.

# ABŞ-da kiçik biznes üçün vergi islahatı hazırlanır

Konqresin vergi siyasəti üzrə alt komitəsi kiçik biznes üçün vergi islahatlarının nəzərdən keçirilməsinə başlamışdır. Qanunverici orqanlar ilə vergi ödəyiciləri arasında daha sıx qarşılıqlı əlaqələrin yaradılması üçün biznes nümayəndələri ilə məsləhətləşmələr keçirilmiş, vergi dərəcələrinin azaldılması, Vergi Məcəlləsinin sadələşdirilməsi və vergi qanunvericiliyinin sabitləşdirilməsi kimi təkliflər irəli sürülmüşdür.

Biznes təmsilçiləri bildirmişlər ki, vergi dərəcələrinin aşağı salınması onların fəaliyyətinə daha çox investisiya qoyulmasına şərait yarada bilər ki, bu da yeni iş yerlərinin açılmasına təkan verər. Məsləhətləşmələr zamanı nəzərdə tutulan vergi islahatlarının əleyhinə çıxış edənlər də olmuşdur. Onların mövqeyinə görə, vergilərin azaldılması yalnız iri müəssisələrin təmsilçilərinə real mənfəət gətirəcək və bundan öz gəlirlərini gizlətmək üçün offşor zonalara meyillənən şirkətlərin yüksək vəzifəli rəhbərləri sui-istifadə edəcəklər.

Bundan əvvəl isə mətbuatda yer alan məlumata bildirilirdi ki, ABŞ-ın yüksək gəlirli vergi rezidentləri səbirsizliklə korporativ verginin dərəcəsinin 15 faizə endirilməsini gözləyirlər: bu addımın atılması onlar üçün daha az gəlir vergisi ödəməyə şərait yaradacaq.

# Fransa gəlirlərdən vergi tutulması qaydasını dəyişdirməlidir

Avropa Komissiyasının Fransa hökumətinə müraciətində xarici mənbələrdən gəlir əldə edən vətəndaşların gəlir vergisinin hesablanması ilə bağlı xarici gəlirlərin vergiyə cəlb edilməsi qaydalarında düzəlişlər aparmaq xahiş edilmişdir. Müraciətdə bildirilmişdir ki, Fransada yaşayan vətəndaşların xaricdə qazandıqları gəlirlərinin vergiyə cəlb edilməsi Avropa İttifaqı qanunları çərçivəsində olmalıdır. Bu isə o deməkdir ki, həmin şəxslər ölkənin daxilində əldə edilən gəlirlər üçün tətbiq olunan vergi güzəştlərindən istifadə edə bilməzlər. Avropa Komissiyası ekspertlərinin fikrincə, hazırda qüvvədə olan qaydalar nəticəsində Fransa işçilərin sərbəst yerdəyişməsi və kapitalın yaradılması prinsipləri ilə bağlı öz üzərinə götürdüyü öhdəlikləri pozur. Komissiyanın müraciətində qeyd olunmuşdur ki, Fransa hökuməti iki ay ərzində xarici gəlirlərin vergiyə cəlb olunması qaydalarında düzəlişlər etməlidir. Əks halda, ölkə Avropa Məhkəməsində məsuliyyətə cəlb edilə bilər.

krossvord



**Yuxarıdan aşağı:** 1.Amerikada məskunlaşmış qriflər sinfinə aid quş; 2.Teatr və kino sahəsində böyük uğurlar qazanmış, Azərbaycanın xalq artisti adına layiq görülmüş mərhum aktrisanın adı; 3.Şpatelə oxşar trafaret çap maşınlarında element; 4.Rusiya Federasiyasının Altay Respublikası ərazisində ən hündür dağ silsiləsi; 5.Əhəng əsaslı təbii üzlük daşı; 6.«Hobbit və ya oraya və geriyə» povestinin, «Üzüklərin hökmdarı» trilogiyasının və «Silmarillion» romanının müəllifi kimi məşhurlaşmış ingilis yazıçısı, linqvisti və filoloqunun soyadı; 9.Məqsəd, arzu, ümid, dilək; 13.Azərbaycanda, İran və Türkiyənin bir sıra bölgələrində uzunsov böyük xovlu xalçalara verilən ad; 15.Qarışıq, müxtəliflik; 16.Şumer və akkad mifologiyasında Babil panteonunun, Mesopotamiyanın ali tanrısı; 17.Polimer istehsalında istifadə olunan kimyəvi maddə; 18.Çində ənənəvi zərb musiqi aləti; 20.Abşeron rayonunda qəsəbə; 21.Rusiya Federasiyasının Murmansk vilayətində çay. Həmçinin, yundan toxunulmuş qadın üst geyimi. **Soldan sağa:** 1.Simli musiqi aləti; 5.Şahidlərin iştirakı ilə yoxlama nəticəsində müəyyən edilən bir faktı təsdiq edən sənəd, protokol; 7.Kabardin-Balkar Respublikasında şəhər; 8.Əmək qabiliyyətini itirmiş şəxs; 10.Rusiyada şəhər; 11.İran İslam Respublikasının birinci dini lideri və qurucusu; 12.Azərbaycanın milli hərbi rəqsi; 14.«Təxribat» filminin qəhrəmanı Zaur obrazını canlandıran aktyorun adı; 19.Gədəbəy rayonunda kənd; 21.Hindistanda və Şərqin bəzi ölkələrində ata-baba peşələri və hüquqi vəziyyətləri cəhətindən bir-biri ilə bağlı olan qapalı ictimai qrup, təbəqə; 22.Qasıq yırtıqlığı xəstəliyi; 23.Bir şeyə köçürülməli olan şəkil və ya yazı nümunəsi kəsilmiş nazik lövhə; 24.Respublikamızda çay; 25.Kimyəvi element (metal).



*Azərbaycanın milli hərbi rəqsi*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Şakira; 2.Riqsdaq; 3.Fales; 4.Axarsu; 5.Busta; 6.Şambor (qalası); 9.Anar; 13.Alna; 15.Baydaun; 16.Aypara; 17.Anetol; 18.Doktor; 20.Sibir; 21.Bonus. **Soldan sağa:** 1.Şərifzadə *(Abbas Mirzə)*; 5.Beş; 7.Keqelban; 8.Asim; 10.Rodos; 11.Sentavo; 12.Oqtay; 14.Truba; 19.Yesenin *(Sergey)*; 21.Boyto *(Arriqo)*; 22.ABBA; 23.Standart; 24.ADR; 25.Palisandr.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

# Yeniyetmə velosipedçilərimizin əzmkarlığı gələcək uğurlardan xəbər verir



Macarıstanın Gyor şəhərində keçirilən Yeniyetmələrin Avropa Olimpiya Festivalında velosiped idmanı üzrə mübarizəyə yekun vurulub. Yarışda iki oğlan və üç qız olmaqla, beş velosipedçimiz iştirak edib.

44 km məsafəyə qrup ötüşməsində iştirak edən qızlarımız içərisində ən yüksək nəticəyə Elfanə Camalova imza atıb - o, qalibdən cəmi 27 saniyə geri qalıb. Təəssüf ki, havanın yağışlı olması səbəbindən yarış zamanı kifayət qədər toqquşmalar baş verib və liderlər qrupunda olan digər iki idmançımız - Validə Cabbarova ilə Ayan Xankişiyeva da qəzadan qaça bilməyiblər. Zədələnmələrinə və kifayət qədər vaxt itirmələrinə baxmayaraq, hər iki velosipedçimiz mübarizəni sonadək davam etdirərək finiş xəttini pelotonda keçə biliblər.

Analoji hadisə oğlanların 72 km məsafəyə yarışında da baş verib - velosipedçimiz Qadir Mustafayev toqquşma zamanı yıxılmaqla kifayət qədər vaxt itirsə də, məsafəni başa vurmağa nail olub. Digər idmançımız Nəcəf Bağırov isə yarışı 30-cu pillədə bitirib ki, bu da kifayət qədər yaxşı göstəricidir.

Diqqəti cəlb edən əsas məqam velosiped idmanı ilə peşəkar şəkildə cəmi bir neçə ay əvvəl məşğul olmağa başlayan və bu vaxta qədər böyük yarış təcrübəsi olmayan yeniyetmə qızlarımızın çıxışıdır. Yıxılmalarına və zədə almalarına baxmayaraq, yarışı sonadək davam etdirən velosipedçilərimizin əzmkarlığı festivalın təşkilatçıları tərəfindən də yüksək qiymətləndirilib. Məhz bu amil ölkədə kişilərlə yanaşı, qadın velosipedinin də inkişaf etdirilməsini qarşısına məqsəd qoyan Azərbaycan Velosiped İdmanı Federasiyasına gələcəyə inamla baxmağa əsas verir.

Qeyd edək ki, hazırda Azərbaycanı qadın velosipedinin böyük yarışlarında Qazaxıstanın «Astana» Dünya Turu komandasının heyətində çıxış edən Yelena Pavluxina təmsil edir. Yeri gəlmişkən, təmsilçimiz bu günlərdə planetin ən nüfuzlu yarışı olan «Tour de France»ın birgünlük qadın versiyasında 23-cü nəticə göstərib.

# Gənc cüdoçularımız etimadı doğrultdular



Almaniyanın paytaxtı Berlin şəhərində gənc cüdoçular arasında Avropa kuboku yarışına yekun vurulub. 37 ölkədən 513 (317 oğlan, 196 qız) idmançının qatıldığı mötəbər yarışda Azərbaycan millisi 20 cüdoçu (15 oğlan, 5 qız) ilə təmsil olunub.

Yarışın ilk günü Azərbaycan cüdoçuları üçün uğurlu olub. Milli komandamızın üzvləri Nəzakət Əzizova (52 kq) və Kəramət Hüseynov (60 kq) bütün rəqiblərinə qalib gələrək Berlində qızıl medala sahib olublar. 48 kq çəki dərəcəsində mübarizə aparan Leyla Əliyeva isə yalnız finalda uduzaraq gümüş medal qazanıb. 66 kq çəki dərəcəsində yarışan Yaqub Cavadov Avropa kuboku yarışında bürünc medala layiq görülüb.

Turnirin sonuncu günündə cüdoçularımız daha 2 medal qazanıblar. 100 kq çəki dərcəsində mübarizə aparan Zelim Kotsiyev bütün rəqiblərindən güclü olduğunu nümayiş etdirərək, Almaniyada növbəti dəfə Azərbaycan bayrağını dalğalandırıb. Digər təmsilçimiz Naim Hüseynov (81 kq) isə Avropa kubokunun bürünc medalına sahib olub.

# Həvəskar xanım velosipedçilərin yürüşü

«Rapha» beynəlxalq həvəskar velosiped klubunun nümayəndəsi Castin Heyin təşəbbüsü və Azərbaycanın «Cyclemania Lady» qrupunun rəhbəri Günay İmanovanın təşkilatçılığı ilə «Women 100» adlı veloyürüş keçirilib.

Azərbaycan Velosiped İdmanı Federasiyasından verilən xəbərə görə, respublikamızda ilk dəfə baş tutan bu veloyürüş hər il «Rapha»nın dəstəyi ilə dünyanın müxtəlif ölkələrində təşkil olunur.

Yürüşdə «Cyclemania Lady» həvəskar velosipedçilər qrupunun 7 aktiv qadın üzvü - Günay İmanova, Leyla Mirzəzadə, Rəbiyyə Oruclu, Səyyarə Hüseynli, Qumral Seyidova, Fidan Rəhimova və Gülşən Qaraşova iştirak ediblər. Veloyürüş zamanı xanım velosipedçilər Şamaxı-İsmayıllı-Göyçay-Ağsu marşrutu üzrə 100 kilometr məsafə qət ediblər və qarşıya qoyulan vəzifənin öhdəsindən müvəffəqiyyətlə gəliblər.

# «İmperator» postunu tərk etdi



Türkiyənin futbol millisində şok ayrılıq baş verib: Fatih Terim - uzun illərdən bəri «İmperator» ləqəbi ilə məşhurlaşan futbol mütəxəssisi Tükiyə yığmasının baş məşqçisi və futbol direktoru vəzifəsindən ayrılıb. Son günlər adı «Qalatasaray»la hallanan 64 yaşlı F.Terim Türkiyə Futbol Federasiyasının (TFF) rəsmiləri ilə bir araya gəlib. Federasiyanın Leventdəki bazasında baş tutan görüşün ardından təcrübəli çalışdırıcı vəzifəsindən istefa verib. Məlumatı təsdiqləyən TFF prezidenti Yıldırım Dəmirörən istefanın qarşılıqlı razılıq əsasında gerçəkləşdiyini vurğulayıb.

mozaika

sağlam həyat tərzi

# Gözümüzə nur gətirən vitaminlər...

***Məlumdur ki, kök və qaragilə normal görmə qabiliyyəti üçün lazım olan ən əsas məhsullardır. Qida ilə əlaqədar olan «gözə xeyir» prinsipi çox sadədir. Sadəcə, tərkibində A, E, C vitaminləri ilə zəngin məhsullara üstünlük vermək lazımdır.***



Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin baş həkimi, tibb elmləri doktoru Aytən Sultanovanın sözlərinə görə, A vitamini tor qişa piqmentinin tərkib hissəsi olduğundan, göz üçün çox vacibdir: «Məhz bu vitaminin çatışmazlığı «gecə korluğu» kimi xəstəliyə səbəb olur. Görmə qabiliyyətinin hər hansı problemində A vitaminin qəbulu mütləqdir. Kökün tərkibi beta-karotinlə çox zəngindir ki, o da orqanizmdə A vitamininə çevrilir. A vitamini mənbələrindən sarı bibər və avokadonu da misal çəkmək olar. Lakin ərik bu vitamin mənbələri arasında liderdir. O, istər təzə, istərsə də qurudulmuş halda A vitamini ilə çox zəngin sayılır. Bundan əlavə, iki yumurta sarısı da orqanizmdə gündəlik A vitamini dozasını təmin edir».

Həkimin sözlərinə görə, ideal görmə qabiliyyəti olan və ya görmə qabiliyyətində problemi olanlarda gün və ya il ərzində qan dövranı ilə bağlı təzyiq problemi yaşana bilər ki, bu da görmə qabiliyyətinə təsir edə bilər. Bu səbəbdən, gözü ayrı bir orqan kimi qəbul etmək lazım deyil: «Yüksək təzyiq olduqda tor qişanın qan təmini normada olmur, bu isə gözlərin vəziyyətinin ilk növbədə qan damarlarından asılı olması deməkdir. Damarların əsas qoruyucusu isə C vitaminidir. Məhz bu səbəbdən C vitamini gözlərin sağlamlığı üçün çox vacibdir. Bu vitaminin gündəlik dozasını bir portağalla təmin etmək mümkündür.

E vitamini güclü antioksidant olmaqla, göz hüceyrələrinin vaxtından əvvəl qocalmasını, tor qişa və quzehli qişada distrofik dəyişiklərin əmələ gəlmə təhlükəsini azaldır. Bu vitaminin gündəlik qəbulu göz şişinin əmələ gəlməsinin qarşısını ala bilir. Həmin vitamini 50-100 qr fındıq və ya qozdan əldə etmək olar».

texnologiya

# "Twitter" ziyanla işləyib

ABŞ-ın beynəlxalq sosial şəbəkə şirkəti bu ilin ikinci rübünü zərərlə başa vurduğunu açıqlayıb. Son üç ay ərzində 116 milyon dollar ziyana düşən şirkət ötən ilin müvafiq dövründə də eyni halla üzləşmişdi: 107 milyon dollar zərər.

«Twitter»in bu ilin ikinci rübündəki gəlirləri isə keçən ilin eyni dövrü ilə müqayisədə 4,6 faiz azalaraq 574 milyon dollar olub. Keçən ilin aprel-iyununda isə bu rəqəm 602 milyon dollar təşkil etmişdi.




O da məlum olub ki, şəbəkədən istifadə edənlərin orta aylıq sayı bu ilin aprel-iyun aylarında yanvar-mart ayları ilə müqayisədə dəyişməyib və 328 milyon nəfər təşkil edib.

«Twitter»in zərərə düşməsi ilə bağlı açıqlamadan sonra şirkətin səhminin qiyməti Nyu-York Birjasında 14 faiz azalıb.

aktual

# Öz ölümünə imza atdı...



Britaniyanın məşhur «The Beatles» qrupunun faciəvi şəkildə dünyasını dəyişmiş üzvü Con Lennonun imzaladığı albom hərraca çıxarılıb.

Xarici KİV-lərin yaydığı xəbərə görə, albomun qeyri-adiliyi bundadır ki, bu, Con Lennonun ölümündən bir neçə saat əvvəl onun öz qatili Mark Çepmen üçün imzaladığı musiqi albomudur.

C.Lennondan evi qarşısında avtoqraf alan qatil bir neçə saat sonra onu odlu silahdan açdığı atəşlə öldürüb, hadisə yerindən qaçarkən isə imzalı albomu yerə salıb. 1980-ci ildən bəri ömürlük həbs cəzasına məhkum edilmiş qatil dəfələrlə əfv olunmasını istəsə də, arzusu gözündə qalıb.

Albomu tapan şəxs onu hərracların birində satışa çıxarıb. Hərrac təşkilatçılarının sözlərinə görə, diqqətlə baxanda albomun üzərində qatilin barmaq izlərini hələ də görmək mümkündür...

cəmiyyət

# Qida zəhərlənməsi: nələrə diqqət etməli...



Qarın ağrısı, ürək bulanma, qusma və ishal kimi şikayətlər qida zəhərlənməsinin xəbərçisidir. Bu əlamətlərin sırasına qızdırma da daxil olarsa, mütləq həkimə müraciət etmək lazımdır. Əsasən isti havalarda tez-tez rast gəlinən, hətta ölümə belə yol açan bu gizli təhlükəyə qarşı necə qorunmalı, nələrə diqqət etməliyik?

Mədə-bağırsaq sistemində infeksion bir xəstəlik olan qida zəhərlənməsi istehlak etdiyimiz bəzi ərzaqların tərkibindəki müxtəlif mikroorqanizm və zəhərlərin (toksin) olması nəticəsində ortaya çıxır. Bundan başqa, yeməyin metal və bəzi kimyəvi maddələrlə təmas etməsi də zəhərlənməyə səbəb olur. Əsasən yay aylarında qeydə alınan zəhərlənmələrin qarşısını almaq üçün qəbul etdiyimiz yeməklərə diqqət etməliyik.

*Beləliklə: ət və süd məhsulları, quş əti, sosiska, kolbasa, dondurma, mayonez və souslu yeməklər, kremli tortlar, bir müddət quruda qalmış dəniz məhsulları, yumurta, limonad kimi qidalardan dolayı zəhərlənmə ortaya çıxır.*

*Ürək bulanma, qusma, qarın ağrısı, ishal kimi hallarla müşayiət olunan və yüksək qızdırma ciddi qida zəhərlənməsinə işarədir. Bu zaman mədədəki toksin tərkibli qidaların bayıra atılması üçün qusma xeyirlidir. Ancaq qusma az olarsa, toksinlərin hamısı qaytarılmadığından bir qismi bağırsaqlara keçir, nəticədə ishal yaşanır.*

Qida zəhərlənməsi çox vaxt 2-3 gün içində yaxşılaşır. Yüksək qızdırma, qanlı ishal və şiddətli qarın ağrısı varsa, antibiotik istifadə edilə bilər. Sadə zəhərlənmələrdə antibiotiklərə ehtiyac yoxdur. Qusmaq üçün də dərman istifadə etmək olmaz.

Bu cür hallarla qarşılaşmamaq üçün probiotik və prebiotik qidalanma çox vacibdir. Açıqda satılan qidalardan və sulardan uzaq durun. Qoxusu, rəngi dəyişmiş, kiflənmiş qidaları yemək qətiyyən olmaz.

**Müdriklər deyib ki...**



***«Nikbin insan yaranın üstündəki qaysağı, bədbin isə qaysağın altındakı yaranı görər».***

***Ernst Şröder (1841-1902)***